AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU

ƏLİYEVA FİRUZƏ

# N.NƏRİMANOV VƏ MİLLİ MƏSƏLƏ

***N.Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir.***

*H.Əliyev*

B A K I – 2015

**Elmi redaktor:** **Ə.M.TAĞIYEV**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **H.Ş.ƏLİBƏYLİ**
*AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun «Beynəlxalq əlaqələr» şöbəsinin müdiri, t.ü.e.d., professor*

**Ə.T.QASIMLI**
*Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu "Ərəb filologiyası" şöbəsinin baş elmi işçisi, f.ü.f.d.*

***Əliyeva Firuzə.*** *N. Nərimanov və milli məsələ. "Nafta-Press" nəşriyyatı, Bakı, 2015, 80 səh.*

***"Qloballaşma və informasiya cəmiyyətinin fəlsəfi problemləri" şöbəsinin 4 iyun 2014-cü il tarixli 5 saylı protokolundan çıxarış əsasında çap edilmişdir.***

*Kitabda N.Nərimanovun milli məsələ ilə bağlı ictimai-siyasi fəaliyyəti, vətənə, xalqa olan milli təəssübkeşliyi öz əksini tapmışdır.*

***F*** $\frac{0301020000-2}{071-2015}$ ***qrifli nəşr***

© ***F.Əliyeva***



**Fəlsəfə üzrə fəlsəfə doktoru Firuzə Əliyevanın «N.Nərimanov və milli məsələ» kitabına fəlsəfə elmləri doktoru, professor Ə.M.Tağiyevin rəyi**

N.Nərimanov görkəmli dövlət xadimi idi. O, xalqı istismarın, cəhalətin, nadanlığın, zülm və zorakılığın, bir sözlə xalq səadətinə mane olan mürtəce qüvvələrin pəncəsindən xilas etmək üçün müxtəlif mübarizə üsullarından istifadə edirdi. O, Azərbaycan xalqının milli mənlik şüurunun oyanmasında, onun öz hüquqları uğrunda mübarizəyə çıxmasında mühüm rol oynamışdır.

Müəllif kitabda milli məsələ ilə bağlı N.Nərimanovun nəzəri irsini və yorulmaz fəaliyyətini hərtərəfli işıqlandırmışdı. Belə ki, N.Nərimanov milli məsələyə dair bir neçə məqalə yazmışdır: Onlardan «Milli məsələ», «Lenin və Şərq», «Ucqarlarda inqilabımızın tarixinə dair» və s. göstərmək olar.

Milli məsələdə federalizm prinsipləri mövqelərində dayanan N.Nərimanov S.M.Kirovun, L.K.Orconikidzenin, M.D.Hüseynovun, L.Mirzoyanın, A.Mikoyanın, Ə.Q.Qarayevin, R.Axundovun milli məsələ barəsindəki fikirləri ilə şərik deyildi ki, Azərbaycana müstəqillik lazım deyil və o muxtar bir qurum kimi RSFSR-in tərkibinə daxil olmalıdır. Bu suala cavab verərkən o, «Ermənistan və Gürcüstan sovetləşənədək Azərbaycan müstəqil olmalıdır, sonra isə baxarıq» demişdir.

N.Nərimanov beynəlmiləlçiliklə milliliyi vəhdətdə təsəvvür edir və hər cür beynəlmiləl olanın mərkəzində və əzəlində milli olanın dayanmalı olması zərurətini qeyd edird.

Müəllif kitabda görkəmli yazçı, filosof, dramaturq, nəhayət dövlət xadimi N.Nərimanovun milli məsələ ilə bağlı elmi-fəlsəfi görüşlərini işıqlandırmışdır. N.Nərimanov yazır ki, «özünü tanımaq ixtiyarı, yəni bir millət özünü bütün-bütünə bilmək üçün müstəqil olmalıdır. Daha açıq: böyük bir millətin istibdadı altında yaşayan balaca bir millətin ixtiyarı vardır ki, birinci böyük millətdən ayrılsın, ikincisi isə hər cəhətdən müstəqil həyat sürsün; öz bildiyi, bacardığı kimi vaxtına sahib olsun və milli səltənət düzəltsin».

N.Nərimanov millətlər üçün milli mədəni aftanomiyanın yaradılmasını irəli sürürdü. Məsələn, Rusiya üsul idarəsində tatarlar üçün milli mədəni avtanomiyanın yaradılmasının vacibliyini göstərərək yazır ki, bütün məktəblər tatarlardan ibarət bir milli komitənin ixtiyarında olmalı idi. bu məktəblərin məramnamələrini bu komitə düzəltməli və müəllimlərini həmin komitə təyin etməli idi.

Xülasə, bütün məktəb işləri bu milli komitəyə tabe olmalıdır.

N.Nərimanov yazır ki, heç bir millətin heç bir lisanın qeyri millətdən, qeyri lisandan artıq mərtəbəsi olmamalıdır. Heç bir millət gərək sıxıntı çəkməsin və balaca millətlərə qarşı ədalətsizlik olmasın. Sərmayədarlar və mülkədarlar bütün qüvvələri ilə millətləri bir-birindən ayırmağa çalışırlar.

Ümumiyyətlə, müəllif monoqrafiyada N.Nərimanovun milli və dil məsələsi ilə bağlı apardığı mübarizəni hərtərəfli təhlil etmiş və bu sahədə ona qarşı mübarizə aparan, onu hər an xalqın gözündən salmağa çalışan qara qüvvələrin iç üzlərini açıb göstərmişdir.





## GİRİŞ

Kitab görkəmli dövlət xadimi, yazıçı, dramaturq N.Nərimanovun milli məsələ ilə bağlı fəlsəfi görüşlərinə həsr edilmişdir. N.Nərimanov yazır: «Siz əlbəttə, mənim sözlərimə də fitnəçi sözləri və özümə də fitnəçi deyə bilərsiniz, siz mənim sözlərimə və fikrimə qiymət qoymaq da istəməzsiniz, fəqət istərdim biləsiniz ki, mən millətlərin birləşməsi xüsusunda bu gün yazanlardan deyiləm, mən «Bahadır və Sona» romanının müəllifiyəm. Bu roman on il bundan müqəddəm çap olunubdur. Bu romanda mən bütün millətlərin birləşməsi xüsusunda əqidəmi yazıram: Vaxt gələcək millətlər arasında olan uçurumlar yox olacaqdır. Müsəlman, xristian, tatar, erməni, gürcü, rus sözləri aradan götürüləcəkdir»[1].

Lakin sonralar N.Nərimanov başa düşdü ki, bunu demək mümkün deyildi. çünki Zaqafqaziyada qanlı hadisələr başlandı. Belə ki, rus soldatları müsəlmanları ermənilər ilə vuruşdurub ittifaq əvəzinə qanlı faciələr törətdilər. Avropa dövlətlərinin müsəlman dövlətlərinə qarşı mübarizəsini N.Nərimanov hələ o vaxtlar görür və yazırdı ki, İngiltərə, Almaniya, Fransa və digər Avropa dövlətlərində hazırkı üsul-idarə dəyişilməyincə müsəlman məmləkətləri üçün müstəqil həyat yoxdur. İngilislər Qafqazda müsəlmanları ermənilərin qulu olmaq üçün yol açdı.

N.Nərimanov bütün Şərq xalqlarının azadlığı və müstəqilliyi uğrunda ömrü boyu mübarizə aparmışdır. İngilislər, fransızlar öz mallarını həmişə çalışmışlar ki,

[1] N.Nərimanov və milli məsələ. F.609, yazı. Arxiv materialları.

ucuz qiymətə geridə qalmış dövlətlərə satsınlar və onların xammallarını isə öz fabriklərinə ucuz qiymətə alsınlar. Nəticədə millətlər arasında ziddiyyətlər gündən-günə sərtləşmişdir. İngilislər heç vaxt Türkiyə və İranın tərəqqisinə razı olmamışlar.

Göründüyü kimi bu siyasət indi də müsəlman ölkələrinə qarşı yeridilir. N.Nərimanovla bağlı son illər xeyli əsərlər yazılmışdır. S.Qurbanovun «N.Nərimanov», Ə.Tağıyevin «Milli ideya və milli ideologiya: problemlər və onların şərhi» və digər tədqiqatçı alimlərin əsərləri N.Nərimanovun ictimai-siyasi fəaliyyətinə həsr edilmişdir.

Kitabda N.Nərimanovun milli məsələyə münasibəti, xalq üçün ürəyi yanan görkəmli xadimin mübarizəsi əks etdirilmişdir.





# I FƏSİL

# N.NƏRİMANOV VƏ MİLLƏT

## §1. Bir çox millətlərdən təşkil olunan dövlətdə milli məsələnin həlli

Görkəmli dramaturq, publisist, yazıçı-naşir, ictimai dövlət xadimi, həkim və filosof N.Nərimanov haqqında xeyli sayda monoqrafiyalar, tədqiqat işləri yazılmışdır. Məs. T.Əhmədov, Ə.Qasımlı,Ə.Qasımlı A.Hacıyeva, F.Köçərli, F.Əhmədova, Ş.Qurbanova və başqaları. Lakin bizim yazdığımız bu kiçik həcmli yazı N.Nərimanovun fəlsəfi görüşlərini əks etdirir. Düzdür, akademik F.Köçərli N.Nərimanov haqqında yazdığı monoqrafiyanın axırıncı fəslində onun fəlsəfi görüşlərinə toxunmuşdur. Lakin bu yazıda biz çalışacağıq ki, kifayət qədər, hərtərəfli olaraq N.Nərimanovun fəlsəfi görüşlərini tədqiq edək. Burada N.Nərimanovun milli məsələ ilə bağlı fəlsəfi görüşləri ilk dəfə olaraq arxiv materiallarından istifadə edilərək tədqiq olunur.

Görkəmli filosof, yazıçı «Bəşəriyyət həyatında əvvəlinci təşkilat» adlı məqalədə yazır: «Bəşəriyyət tarixinin gedişi aşkar göstəriyor ki, «millət» sözü qədim insanların təşkilatında işləniyor idi. Qədim insanlar əqrəba-əqraba olurlar idi, yəni müəyyən bir külfət qeyri-müəyyən bir külfət ilə əlaqə bağlar idi. Bu minvalla qəbilələr meydana gəliyor idi. Bir qəbilə külfətlərə böliniyör idi»[2]. N.Nərimanov bu başlıq altında qəbilə-

[2] N.Nərimanov və milli məsələ. F.609, yazı 1, iş 154, qutu5

lərin getdikcə bir-biri ilə əlaqə yaratmaları, nəhayət balaca qəbilələrin ümumi düşməni məhv etmək üçün müvəqqəti birləşmələrini və düşmən hücumunu dəf etdikdən sonra ayrılmalarını göstərir. Hərə öz güzəranını bildiyi, bacardığı kimi keçirir, yəni hər qəbilə iqtisadi məsələsini öz dairəsində aparır. N.Nərimanov yazır ki, ona binaən (müvafiq – Ə.F.) bu balaca qəbilələrin lisanları da (dilləri – Ə.F.), ləhcələri də özlərinə məxsus qalardı. Müvəqqəti birləşmiş qəbilələr üçün ümumi lisan (dil – Ə.F.) ehtiyaclığı görünmüyor idi. Müəllif göstərir ki, tarixin müəyyən gedişində iqtisadiyyatın inkişafı naminə bu balaca qəbilələr birləşirlər. O yazır: «Getdikcə iqtisadi məsələ bu balaca qəbilələri bir yerə cəm edib qövm və daha sonra millət meydana gəliyor; iqtisadi məsələ özlüyündə üç hissədən ibarət bir qüvvədir: 1) xarici düşmənin hücumu; 2) təbiətin gizli qüvvələri; 3) təhsul və məhsulatı ilə alver. Bu üç qüvvə balaca cəmiyyətlərin bir-birilə yavuqlaşmalarına və birləşmələrinə səbəb olur». Sonra N.Nərimanov göstərir ki, bu qəbilələr çay kənarlarına gəlib əkinçiliklə məşğul olur, digər qəbilələrlə yavuqlaşırlar, bunlar yavuqlaşdıqca (yaxınlaşdıqca – Ə.F.) lisanları da yavuqlaşır və axırda bir neçə lisan əvəzinə ümumi bir lisan meydana gəlir. Bu minvalla balaca cəmiyyətlərdən, qəbilələrdən axırda böyük bir millət təşkil olunur. Görkəmli filosof göstərmək istəyir ki, millət tarixi bir kateqoriya olaraq bəşəriyyətin tarixi inkişafı nəticəsində meydana gələrək formalaşır. Tarixin müəyyən mərhələsində qəbilələr xarici düşmənlərə qarşı mübarizə aparmaq üçün ittifaq bağlayırlar. Müəllif göstərir ki, ümumi lisansız cəmiyyət bir-birilə qonuşa bilməzlər. Bir neçə qəbilələrdən millət təşkilatının düzəlməsi üçün lisan böyük şərtdir». Burada





yazıçı göstərir ki, ümumi dil insanları bir-birinə yaxınlaşdırır. N.Nərimanov yazır ki, ümumi dil ümumi milli ədəbiyyatın, musiqinin yaranmasına səbəb olur. N.Nərimanov göstərir ki, ədəbiyyatı olmayan millətin axırı heçdir. Məsələn: tapmaca, nağıllar, mahnılar, şeirlər ümumi milli musiqinin düzəlməsinə səbəb olur; bu nağıllarda, tapmacalarda və musiqidə millətin bütün tarixi söylənər, millətin qəmini və şadlığını, onun biliyini, səhvini, rəşadətliyini, adətini və bütün həyatının keçinəcəyini bu misallarda, tapmacalarda, nağıllarda, mahnılarda musiqi oxumaq mümkündür. Sonra müəllif yazır: «Sonralar tərəqqi etdikcə bu ədəbiyyat «yazı vasitəsilə intişar tapar və tapdıqca millət özünü tanıya bilər və qeyri millətdən seçilər»[3].

Sonra N.Nərimanov yazır: «Kamazinski» çalanda bir rusun bədəni titrəyən kimi «çoban şikəstəsi» də bir türk (azəri – Ə.F.) balasını dərin-dərin fikirlərə salar. Bu hissi gizlətmək mümkün deyildir. Bu hissi qərinələrlə toplaşmış bir qüvvə meydana gətirmişdir. Bu hiss qəhrəmanlar hazırlamış və qəhrəmanlar qanları tökdürmüşdür. Bu ifadələrdə dərin bir məna vardır. Yazıçı, filosofcasına mühakimə yürüdərək azəri xalqının əsrlər boyu öz azadlıqları uğrunda apardıqları mübarizə və bu mübarizədə qədim xalq mahnılarından ilham alaraq döyüşkənlik nümunələri göstərdiklərini qeyd edir.

N.Nərimanov göstərir ki, «feodalizm dövrü kapitalizm dövrünə yeriş etdikcə (keçdikcə – Ə.F.) milli məsələ də qeyri yolla gedir. Yəni məhsul təğyir tapdıqca (artdıqca – Ə.F.) milli məsələ də əvvəlki mənasını ruhunu itirir. Sərmayə (kapital – Ə.F.) qüvvətlənib öz

[3] Yenə orada

vətənində boğuluyor». Müəllif yazır ki, kapital genişləndikcə kapitalistlər öz kapitallarını artıq bazarlara çıxartmaq istəyirlər. Bu bazarlarda kapitalistlər qeyri ölkələrdən olan kapitalistlərlə rastlaşırlar və bunların arasında milli məsələ meydana gəlir. Dövləti qüvvətli olan kapitalist bu bazarda özünü qüvvətli hesab edir. Alver məsələsində ziddiyyət yaranır və bu kapitalistlər öz dövlətlərinə müraciət edirlər. Nəhayət, bu dövlətlər arasında ziddiyyət artır. Axırda bir dövlət digər dövlət tərəfindən bazarda öz nüfuzunu qoruyarkən toqquşur. Zahirdə milli məsələ naminə hərb meydanı açılırsa, fəqət batində bazarı zəbt etmək üçün, yəni kapitalistlərin cibləri dolmaq üçün hər iki tərəfdən böyük qurbanlar verilir.

Bu qurbanlar kimlərdən olar? Fəqir fəhlə və əkinçidən. Guya milli məsələ ancaq bunlara gərəkdir. Onları mühafizə edirlər. Kapitalist balaları pulun gücünə özlərini müharibənin qızıl atəşindən xilas edirlər. Burada mən bir haşiyə çıxmaq istəyirəm. Sanki Nərimanovun yazdığı bu sözlər hal-hazırkı dövrdə öz uşaqlarını əsgəri xidmətə göndərməkdən boyun qaçıran varlı məmurlara aiddir. Müharibə vəziyyətində olan respublikamızda cəbhə bölgələrində xidmət edənlərin əksəriyyəti elə kasıb balalarıdır: Sonra Nərimanov yazır: «Müharibəni aparmaq üçün hər dövlət böyük xərclər edir, borca düşür; müharibədən sonra bu borcu vermək üçün məzə töycü (naloq) yığılır. Bu töycünü verən kimlərdir? Kəndçilər, sənətkarlar və xırda alış-veriş edənlər. Deməkː hal-hazırda milli məsələni meydana atan sərmayədarlardır» (kapitalistlərdir – Ə.F.)[4].

[4] Yenə orada





Göründüyü kimi N.Nərimanov bu məqaləsində milli məsələnin meydana gəlməsinin çox-çox əvvəllər olduğunu fəlsəfi cəhətdən izah etmişdir. Sonra o yazır ki, Amerika, İngiltərə Fransa, Almaniya bir-birini qovmaqdadırlar. Müharibədən sonra meydana gələn təzə «milli dövlətlər» qüvvətli dövlətlərin sərmayəsi altında əzilməkdədirlər». O yazır ki, vaxt gələcək ki, qüvvətli dövlətlərin əlində kiçik dövlətlər oyuncaq olacaqlar. Bu fikirlər hal-hazırkı dövrümüzdə gedən qloballaşma prosesinə aiddir.

Görkəmli yazıçı, ictimai xadim və filosof N.Nərimanov yazır ki, alver tarixi məcbur edir ki, təzə millətin lisanını öyrənsin, onunla əlaqədə olsun, onun adətini öyrənsin. Sonra gördüyünü, eşitdiyini öz milləti arasında intişar (yayar – Ə.F.) edər. Onlar bilmədiklərini bir-birindən öyrənər bir-birinin lisanını, adətlərini öyrənər və bununla da beynəlmiləl məsələsinə yol açarlar[5]. Sonra N.Nərimanov yazır ki, millətlər inkişaf etdikcə onların elmə, sənətə maraqları artır. Əkinçi milli məktəbin açılmasını tələb edir. Həkimlərə, mühəndislərə tələbat artır. Mühit özü milləti məcbur edir ki, ümummədəniyyətə yol açsın və bu yolu açmaqda millətin oxumuşları – ziyalıları böyük rol oynayırlar. Bu ziyalılar ümummədəniyyətə daxil olan elmləri tədricən milli lisana tərcümə edirlər. Bu minvalla millətin arasından alimlər, ədiblər, şairlər, filosoflar çıxırlar. N.Nərimanov yazır ki, bunlar millətin qaymaqlarıdır. Onlar millətin tərəqqi etməsinə çalışırlar. Millətin qüvvəti onun iqtisadiyyatı ilə bağlıdır. Biz demək istəyirik ki, iqtisadiyyatın inkişafı və möhkəmlənməsi üçün onu

[5] Yenə orada, s.9

dərindən bilən iqtisadçılar olmalıdırlar. Yoxsa dövlət bərbad hala düşər. N.Nərimanov yazır ki, millətin ziyalıları millət lisanını hər şeydən artıq tutmalıdırlar. Tacir və fəhlə öz işlərini keçirtmək üçün milli lisanı yarımçıq da bilsələr keçər, fəqət ziyalı bununla kifayət edəməz, edərsə millətin nəzərində görünməz və yapdığı işi yazdığı nişanı (yazını – Ə.F.) mükəmməl bilməsə millət nəzərində öz mərtəbəsini itirər, çünki qeyri dil vasitəsilə millətinə yavuq (yaxın – Ə.F.) gedəməz və qeyri dili də o qədər mükəmməl bilməyəcəkdir, çünki əcnəbi dili bilmək üçün ən balaca vaxtından tərbiyə almalıdır».[6]

Məhz buna görə müəllif yazır: «Bu səbəblərə görə biz deyirik: öz dilini mükəmməl bilməyən ziyalı, millətin həyatında avaradır»[7]. Nərimanovun bu fikirləri hal-hazırkı dövrümüzdə öz dilini bilməyən ziyalılara bir çağırışdır.

Nərimanov bu yazarında millətin, dövlətin, dilin yaranmsını tarixi, fəlsəfi baxımdan qanunauyğun olaraq izah etmişdir.

Müəllif iqtisadiyyatı millətin tərəqqisinin mühüm amili hesab edərək yazır: «Sərmayənin qüvvəti bunların bir mərkəzə tabe olmasını tələb edir. İqtisadi məsələdə zəif millətlər məhsulu tərəqqi etmiş millətə yavaş-yavaş tabe olur. Bu tərəqqi etmiş millətin ziyalıları balaca, zəif millətləri mərkəzə tabe etməyə çalışırlar[8].

XVIII əsrdən başlayaraq milli səltənət (dövlət – Ə.F.) bu sayaq təşkil olunur. Nərimanov demək istəyir ki, qüvvətli millət dövlətdə bir dili, yəni öz dilini

6 Yenə orada, s.11
7 Yenə orada
8 Yenə orada, s.12





genişləndirməyə çalışır. Balaca millətləri də öz dilində danışanları zəbt etməyə çalışırlar. Öz ana dilinin genişlənməsində ziyalılar çox çalışırlar. Burada Nərimanov ziyalılara yüksək qiymət verərək yazır ki, onlar milli məktəblər açırlar, bu dövlətə tabe olmuş millətlərin balalarını bu məktəblərdə oxudurlar. Millət dövlət dilini öyrənməsə iqtisadiyyatı yüksəldə bilməz. Kiçik millətlər tərəqqi etmiş millətin dilini öyrənməkdə çətinlik çəkdiklərinə görə dövlət işlərində iştirak edə bilmirlər. Ona görə də onlar arasında ziddiyyət yaranır və bu balaca millətlər hökmran millətlərdən ayrılmaq fikrinə düşürlər. Nəhayət, millətlər arasında daxili çəkişmələr, ziddiyyətlər artır. Onlar demokratik üsul-idarəsi uğrunda mübarizəyə qalxırlar.

N.Nərimanov milli məsələyə dair digər bir yazısında Kautski ilə Bauerin milli məsələyə münasibətində aşağıdakı açıqlamanı verərək yazır: «Kautski «Millət və beynəlmiləlçilik» inşasında (məqaləsində – Ə.F.) Bauerin milli məsələ xüsusunda yazdığı fikirlərini tənqid edib deyir: «Bauer milli məsələ nə olduğunu cəmiyyət tərəqqisinin xülasəsində görür. «Məsələn, Bauer yazır: «Millət o vaxtdan təşkil olundu ki, insan təbiətlə mübarizədə öz zəhməti ilə həyatı üçün yem tapmağa başladı. Millətlərin və ya xüsusi bir millətin meydana gəlməsini insanların təbiət ilə mübarizəsindən bilmək lazım gəlir. Bauerin bu fikirlərini yazaraq Kautski deyir: Bauerin bu sözləri haqdır. Fəqət onun bəyanatında milləti qeyri bir insan təşkilatından ayıran bir nişanə göstərilmir, belə olan surətdə Bauerin dediyi həqiqətlə düz gəlmir. Bauer deyir: «Ümumi xasiyyəti və mədəniyyəti olanlar millət hesab olunurlar. Bauer sual verir: «Ümumi lisanlı insanlardan bir millət təşkil etmək olarmı? Özü də cavab

verir: İngilislər, norveçlər serblər-xorvatlar bir lisanda söyləyirlər. Fəqət bunlar bir millət hesab olunmurlar. Yəhudilərin isə ümumi dilləri yoxdur, bununla belə hamısı bir millət hesab olunurlar»[9].

Kautski bunun cavabında deyir: «Heç kim demir ki, ikinci bir lisanı öyrənmiş adam öz millətliyini itirir və yaxud da ki, bir çox lisan öyrənmiş bir adam çox millətlərə təəllüq tapır. İngilis o vaxtadək ingilis millətindən hesab olunur ki, ingilis lisanını qeyri lisanlardan yaxşı bilir». Sonra Nərimanov yazır: «Əcəba xasiyyət dəyişmək iləmi millət dəyişilir? Məgər hamı ingilislər bir lisanda söyləmirlər? Həmçinin datçlar və ya serblər və xorvatlar? Doğrudur ingilislər öz dillərini irlandlar ilə bölüşdürmüşlər. Həmçinin datçlar norveçlərlə, serblər xorvatlarla. Bu onu göstərmir ki, hər lisan ümumiyyətliyi milli ümumiyyətliyidir. Lisan ümumiyyətliyi qeyri nişanələrilə bir yerdə olduqda onun (lisanın) əvvəlinci rol oynamağına da şübhə olmasın gərək.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müəllif bu yazarında millətin millət olmasında, onun bir-birilə əlaqələrinin möhkəmlənməsində dilin əsas şərtlərdən biri olduğunu göstərmək istəmişdir. Sonra o Stalinin milli məsələ haqqındakı fikirlərini yazır: «Tarixi düzülmüş və davamında baqli, lisan məskən, iqtisadi həyat və ümum mədəniyyətdən meydana gəlmiş xüsusi ruhu olan bir cəmiyyət millət adlanır»[10].

Sonra Nərimanov Stalinin milli məsələdə dörd şərti vacib bildirdiyini göstərir. 1) Ümumi lisan; 2) ümumi məskən; 3) ümumi iqtisadi həyat; 4) ümumi xüsusi milli

[9] Yenə orada, s.18-19
[10] Yenə orada, s.18-19





xasiyyət. Bu səbəblərə görə də yəhudiləri bu da bir millət hesab etmir. Çünki onların ümum məskənləri, ümum lisanları və ümum iqtisadi həyatları yoxdur. Nərimanov yazır ki, Stalinin sözlərindən belə çıxır ki, yəhudilər heç vaxt bir-birilə görüşmürlər, heç vaxt ittifaqa girmirlər». Lakin bu sözlər şübhə altındadır. Kautski yəhudi «xasiyyəti» haqqında yazır: «Yəhudilərə mənsub alçaqlıq, çirkinlik onların cisimlərində yox, bəlkə ruhlarındadır, yəni bu nöqsan onların əyri burunlarında, əyri qıçlarında deyildir, əyri vicdanlarındadır, yəhudilərin bir-birilə böyük ittifaqları ancaq pis yolda sərf olunur, yəni ən vicdansız hərəkəti qazanmağa işlənilir»[11].

Nərimanov yazır ki, hər halda bu pis «yəhudi xasiyyəti» xüsusunda söylədikdə onların keçmişdə və *hal-hazırda elm və fən meydanında ümum insaniyyətə* göstərdikləri xidmətləri unutmamalıyıq.

Göründüyü kimi Nərimanov bütün millətləri eyni səviyyədə yaşamağa, onldarın arasında sərhəd qoymamağa çalışır. O, millətlərin milli hisslərinə toxunmamağı tövsiyə edir.

Sonra N. Nərimanov milli məslə ilə bağlı məqaləsinin bir bölməsində belə bir məsələni qarşıya qoyur: «Bir çox millətlərdən təşkil olunan səltənətdə (dövlətdə – Ə.F.) milli məsələni necə həll etmək olar? Daha doğrusu bu bir başlıq kimi verilir. Müəllif bu sualın cavabını yazır»[12]. 1) Ya millətlər səltənətini təşkil etmək; 2) ya da ki, hər bir balaca millətə müstəqillik vermək.

[11] Yenə orada, s.21-22
[12] Yenə orada

İkinci cavaba gəlincə, deməк lazımdır ki, bu o vaxt mümkündür ki, hər millət üçün müəyyən məskən ola. Bir çox millətlərdən ibarət olan səltənətdə milli məsələni necə həll etmək sualı çoxdan bəri böyük meydan açıb türlü-türlü (çoxlu-çoxlu – Ə.F.) fikirlər doğurmaqdadır. Bu məsələ barəsində fikir yürüdənlər daha doğrusu mövcud ədəbiyyatdakı fikir sahibləri Rusiya və Avstriya dairəsində sehr edirlər. Çünki bu iki dövlətdə yaşayan kiçik millətlər daha acınacaqlı həyat keçirirlər. Düzdür, 1903-cü ildə rus marksistləri firqə məramnaməsinin 9-cu fəslində milli məsələ xüsusunda «hər millətə özünü tanımağın ixtiyarı verilmək» məsələsi qət olundu. Nərimanov yazır, bu nə deməkdir? «Özünü tanımaq ixtiyarı», yəni bir millət özünü bütün bilmək üçün müstəqil olmalıdır. Daha açıq desək böyük bir millətin istibdadı (hakimiyyəti – Ə.F.) altında yaşayan balaca bir millətin ixtiyarı vardır ki, 1-ci böyük bir millətdən ayrılsın, 2-cisi hər cəhətdən müstəqil həyat sürsün. Öz bildiyi kimi yaşasın və milli dövlət qursun.

Rusiya marksistlərinin bu qətnamələrini menşeviklər nəinki qəbul etmirlər, hətta millətlər üçün zərər bilirlər. Onlar 9-cu fəsildəki «özünü tanımaq» sözlərinin əvəzinə «millətlər üçün milli mədəni avtanomiya tələb edirlər. Sonra fikrini davam etdirərək Nərimanov yazır: «Rüsiya üsul idarəsində yaşayan tatarlar üçün «milli mədəni avtanomiya» bunu andırır (sübut edir – Ə.F.). tatarlar ana dilində gərək oxuyalar. Bütün məktəblər tatarlardan ibarət bir milli komitənin ixtiyarında olmalı, bu məktəblərin məramnamələrini bu komitə düzəltməli və müəllimləri həmən komitə təyin etməli idi. Xülasə, bütün məktəb işləri bu milli komitəyə tabe olur.





N. Nərimanov milli məsələ ilə bağlı bu məqaləsində bir daha göstərmək istəyir ki, hər bir millət özünü tanımaq hüququna malikdir. O bu məqaləsində Leninin «Milli məsələ» kitabçasından tərcüməni də «Fəhlə sinfi və milli məsələ» başlığı altında (may, 1913-cü il) vermişdir. Nərimanov göstərir ki, fəhlələri milli məsələ ilə bir-birindən ayırmaq istəyirlər. Bu düzgün metod deyildir. İqtisadi məsələ bir çox millətləri bir məmləkətdə birləşdirir. Mədəni və məktəb işlərində bunları bir-birindən ayırmaq axmaqlıqdır. Məktəb işlərində bu millətlərin birləşməsinə çalışmaq lazımdır. Milli mədəni avtanomiya kapitalist uşaqları ilə fəhlə balalarını bir-birindən ayırmaz.

Sonra Nərimanov yazır: «Rusiya hökuməti rus lisanını balaca millətlərə məcburi oxutdu»[13]. Balaca millətlərin balaları rus lisanını mükəmməl əxz etdikdə darülfünlara getdilər. Az da olsa dövlət idarələrində qulluq etdilər. Lakin «milli mədəni avtonomiya» balaca millətlər üçün yeganə çıxış yolu deyildir. Düzdür, zahirdə mədəni milli avtonomiya hər bir millətçini maraqlandırır. Niyə də maraqlandırmasın. Millət istər ki, balaları milli lisanda oxusun, milli ədəbiyyatı, mədəniyyəti inkişaf etsin. N. Nərimanov göstərir ki, məsələ bunda deyildir. Məsələ odur ki, millət ümumən azad olsun, müstəqil yaşasın. O, sinfi mübarizəni millətin yeganə çsıxış yolu hesab edir.

N.Nərimanovun «Millətlərin özlərini tanımaq haqları» haqqında məqaləsi «Maarif» jurnalında (iyul-aprel 1914-cü il) çap olunmuşdur. Nərimanov yazır ki, millətlərin «özlərini tanımaq» məsələsi nəinki tək bir rus

[13] Yenə orada, s.24

proqramında (1903) hətta Londonda millətlər konfransında (1894) bu xüsusda qətnamə çıxarılmışdı. Nərimanov göstərir ki, milli məsələ Rusiyada birinci dəfə deyildir ki, qalxır və tək bir bu məmləkətə aid məsələ deyildir. Bütün dünyada sərmayə dövrünün feodalizm *dövrünə qalib gəlməsi milli məsələnin qalxmasına* səbəb olmuşdur. Milli məsələnin yaranmasına iqtisadiyyat səbəb olur, yəni istehsalatı inkişaf etdirmək üçün burjuaziya bütün daxili bazarı ələ almaq üçün bir dildə danışan xalqın məsləklərini birləşdirməyə çalışır. Bildiyimiz kimi dil insanları bir-birinə qovuşdurmaq üçün bir vasitədir. Kapitalizm ticarəti və xalqın bir yerdə cəm olması bazarda alver rabitəsi üçün ən birinci şərtlərdəndir. Nərimanov yazır ki, kapitalizmin inkişafı millətlərin bir-birinə yaxınlaşmasına, ticarətin sürətlə genişlənməsinə və nəhayət milli dövlətlərin yaranmasına zəmin yaradır. Müəllif bu məqaləsində Roza Lüksemburqun, Kautskinin millətlərin «özünü tanıması» məsələsinə münasibətini bildirir. Nərimanov yazır ki, bizə deyirlər millətin ayrılmq haqqını tələb etmək siz məzlum millətlərin burjuaziyasına kömək edirsiniz, yəni onun millətçiliyinə yol açırsınız. Nə qədər ki, məzlum millətin burjuaziyası öz sərvətdarlıq millətçiliyini davam etdirmək istəyir, biz onun əleyhinəyik. Bir millət qeyri millətdən hüquq cəhətdən artıq olmaq istərsə və ona zülm edərsə biz bununla mübarizə aparmalıyıq və məzlum millətin də qeyrilərinə nisbət artıq haqq almalarına biz ziddik»[14].

Nərimanov göstərir ki, qeyri millətlərə zülm edən bir millət özünü azad hesab edə bilərmi? Yox. Hər bir

[14] Yenə orada, s.49





millətin milli dövlət təşkil etməsi vacibdir. Hazırda milli məsələdə bizim «əsl fikrimiz budur ki, müxtəlif millətlərin fəhlələrini bu hüquqda birləşdirək. Ancaq belə bir təbliğat millətlərin bir-birilə sülh şəraitində yaşamalarına yol açar. Deməli, Nərimanov müstəqil milli dövlətlərin yaradılması tərəfdarı olmuşdur. O, yazır: «Azadə ayrılmaq haqqı olmayınca azadə ittifaq yalan sözdür», yəni iki millət bir-birilə o vaxt azadə ittifaq bağlaya bilərlər ki, ikisi də ittifaqdan müqəddəm müstəqil olarlar; ya da ki, iki müstəqil millət ancaq azadə ittifaq bağlaya bilərlər. Birinin haqqı çox, qeyrisinin haqqı az olduqda ittifaq olmaz; haqqı çox haqqı az olanla *ittifaq bağlarsa, şübhəsiz haqqı az olan haqqı* çox olana tabe olmayacaqdır»[15]. Nərimanovun bu fikirləri Azərbaycanın Rusiya tərkibinə ittifaq şəklində daxil olmasına əyani sübutdur. Haqqı çox olan Azərbaycan digər (Rusiya tərkibinə daxil olmuş) respublikalardan həmişə haqqı az olurdu. Çox haqlı olaraq Nərimanov deyirdi ki, haqqı az olanla haqqı çox olan arasında (millət) ittifaq bağlanarsa bu ittifaqa azad ittifaq deyə bilmərik. Zahirdə belə olsa da batində belə deyildir. Ondan asılıdır. Azərbaycanın Rusiya tərkibində olduğu kimi. Belə ittifaqa məcburi ittifaq deyirik. Biz bunun əleyhinəyik. Nərimanov fikrini davam etdirərək açıqcasına yazır ki, müsavi hüquq olmayınca azadə ittifaq da olmayacaqdır. Bunu Nərimanov Rusiya Şuralarında olan milli məsələ ilə əlaqədar demişdir Məhz buna görə də Nərimanovu millətçiliklə hər an damğalayır və ləkə yaxmağa çalışırdılar. O yazır: «Madam ki, biz hər millətin azadə müstəqil yaşamasına tərəfdarıq və nə üçün

[15] Yenə orada, s.53

bu cümhuriyyətlər, məsələn, Ukrayna, Gürcüstan, Azərbaycan və qeyrilərinə də Rusiya Cümhuriyyətilə ittifaqda yaşarkən bir çox məsələlərin həllini yenə də mərkəzə mühəvvəl (həvalə – Ə.F.) etmişlər, nə üçün bunlar bu və ya digər qeyri böyük məsələləri öz ixtiyarlarında saxlamayıb mərkəzə tapşırmışlar. Kapitalistlər mallarını satmaq üçün istəməzlər ki, həmin maldan satılan ölkədə istehsal olunsun. Onlar qeyri millətlərin tərəqqi etmələrinə zidd olacaqlar. Məsələn, ingilis heç vaxt İran və Türkiyənin tərəqqisinə razı olmayacaqdır. Onlar razı olmayacaqlar ki, ingilisdə çıxan mahud İranda da çıxsın, çünki o vaxt öz mahudu İranda satılmaz. Buna görə də kapitalist üsul-idarəsinin əlehinəyik. Çünki bu millətlər arasındakı ziddiyyətləri sərtləşdirəcəkdir. Nərimanov göstərir ki, ölkənin daxili işləri millətlərin özlərinə tapşırılsın, çünki yerli əhali (məhkəmə, maarif və s.) bu məsələləri mərkəzdən yaxşı və tez həll edər. Bu səbəbdən, hər millətə özünü tanımaq hüququ verməklə biz demək istəyirik ki, müəyyən məsələlərdə ittifaqa daxil olanlar müstəqil olmalıdırlar.

## §2. Milli məsələnin həlli. Azərbaycanda milli məsələ və yerli idarəetmə orqanları

N.Nərimanovun «Ucqarlarda inqilabımızın tarixinə dair» məruzəsi məxfi sənəd olub RK(b)PMK-nə İ.V.Stalinə, surətləri isə S.D.Trotski və K.B.Rodekə göndərilmişdi. Sənəd 1923-cü ilin iyununda təqdim edilmişdir. Sonralar, yəni 1923-cü ilin dekabrın 23-də və 1924-cü il mayın 27-də N.Nərimanov bu sənədə iki əlavə də etmişdi. Müəllif öz məruzəsini «Ucqarlarda





inqilabımızın tarixinə dair» adlandıraraq onu iki hissəyə ayırmışdır:

1. Şərq məsələsi
2. Azərbaycanda vəziyyət.

Lakin yazılanlar müəllifin müəyyən etdiyi mövzudan daha genişdir. Bu məruzəsində müəllif milli siyasət, Azərbaycanda milli dövlət quruculuğu, milli məsələdəki əyintilərə qarşı mübarizə məsələləri və s. haqqında öz fikirlərini bildirir. Xalqını, vətənini dərin məhəbbətlə sevən ona laqeyd olmayan N.Nərimanov bu məruzəsində milli məsələyə xüsusi fikir vermişdi. O yazırdı: «Əgər əlverişli şərait yaranarsa, mən «Ucqarlarda inqilabımızın tarixinə dair» qısa məktublarımı bu tərkibdə təkcə MK üçün deyil, gələcək nəsil üçün davam etdirərəm. Mən əminəm ki, bizim ideyamız qalib gələcəkdir. Bəlkə də biz öləcəyik, lakin ona görə öləcəyik ki, yenidən həyata qayıdaq. O zaman mənim qısa məktublarım gələcək kommunist rəhbərlər üçün faydalı olacaqdır».[16] Lakin N.Nərimanovun kommunist rəhbərlər haqqındakı faydalı fikirləri işdə özünü doğrultmadı. Bu 70 il ərzində özünü büruzə verdi. Yerlərdə və «Şərq» respublikalarında milli şəraitin özünəməxsusluğunu başa düşən N.Nərimanov adamların milli hisslərinə kobudcasına müdaxilə etməyin təhlükəli olduğunu həssaslıqla duyurdu. O, ucqarlarda milli hislərə və milli münasibətlərə nifaq doğura biləcək bütün məsələlərə ehtiyatla yanaşırdı.

Milli siyasətin təhqir edilməsi fəhlə mühitində millətlərarası münasibətləri kəskinləşdirirdi. Bu

[16] Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992, s.9

münasibətlər çox vaxtlar iqtisadi zəmində, məişət şəraiti üzərində qurulurdu.

N.Nərimanov hiss edirdi ki, millətlərarası münasibətlər milli özünəqapılma doğurur. Nərimanov yazırdı: «Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə... tənə, ittiham eşitməyə məcbur olursan. Mən, həmişə bu nöqsanları göstərirdim və əlbəttə, «millətçi» adını qazanmışam»[17].

N.Nərimanov bu məktubunda sanki üstüörtülü olaraq onun əlehinə olanlara da işarə vururdu. O tək idi. MK-də ona dayaq yox idi.

Azərbaycanın Rusiya tərkibinə daxil edilməsində də Nərimanov israrlı deyildi. MK-ə üzvləri Ə.Qarayev, M.D.Hüseynov belə fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyildir, biz Rusiya tərkibinə daxil olmalıyıq.

Orconikidze bu haqda N.Nərimanovun fikrini bilmək istəyərkən o deyir: «Mən qəti şəkildə bildirirəm ki, Azərbaycan, Gürcüstan və Ermənistan sovetləşdiriləndək müstəqil olmalıdır, sonra isə baxarıq»[18].

M.D.Hüseynov haqqında bir qadın Nərimanova şikayət edir. O, D.Hüseynovu yanına çağırıb əhvalatı ona danışır və Hüseynov qıpqırmızı olur.

20-ci ildə Hüseynov hər yerdə Nərimanovu millətçi kimi qələmə vermək istəyir. O, Çiçerinə yazır ki, «N.Nərimanov sağ qanadda durur, mənsə sol, belə bir şəraitdə çətin ki, onunla işləmək mümkün olsun»[19].

[17] Yenə orada, s.7
[18] Yenə orada, s.17
[19] Yenə orada, s.18





Göründüyü kimi «sapı özümüzdən olan baltalar» Nərimanovu hər yerdə, hər an sancırdılar. Onlar müsəlman fəhlələrinin, kəndlilərinin inkişaf səviyyəsinin yüksəlməsinin əleyhinə idilər və bu haqda Nərimanovun tələblərində milli meyl görürdülər. Arxiv materiallarını araşdırarkən Hüseynov, Qarayev və digərlərinin milli məsələdə Nərimanovun əleyhinə olduqlarının şahidi oluruq. Məsələn, 1923-cü ilin 10 iyulunda Lenin adına parça fabrikində Pirverdiyev adlı şəxs çıxışında göstərir ki, Nərimanov bəy, xan arvadlarının şikayətlərinə baxır, fəhlələrin müraciətinə isə baxmır. N.Nərimanov deyir ki, fabrikdə türk yoxdur. Biz deyirik ki, bizim fabrikdə 95% türk var (azərbaycanlı – Ə.F.). Biz, Axundov, Qarayev, Orcanikidze bildiririk ki, Nərimanov gedəndən biz rahat nəfəs alırıq. Qara şəhərdəki iclasda isə Molla baba deyir ki, mənə deyirlər ki, Nərimanovu çıxartmaq üçün bizə kömək etmək lazımdır»[20]. Bu kiçik epizoddan məlum olur ki, millətini sevən, onun yolunda canından keçən bir insanı hərtərəfli sıxışdırırlar. Həmin bu iclasda İzzət Hüseynov adlı birisi çıxış edərək deyir ki, N.Nərimanov cinayət xətti üzrə hərəkət edir. Sənaye aşağı düşmüşdü. Nərimanov deyir ki, türk fəhlələrini irəli çəkmək lazımdır. Qoy N.Nərimanov desin nə qədər türk rəhbər vəzifədə çalışır. Nərimanov nə deyirsə hamısı yalandır. Başqa millətlərə baxanda türklər çoxluq təşkil edirlər. N.Nərimanovun dedikləri düzgün deyildir. Məktəb, təhsil səviyyəsi Nərimanovun işlədiyi vaxtdan bəri indi daha yüksəkdir. Onu yoxlamaq lazımdır Nərimanov şaxsey-vaxsey gedənlərə qənd verir, fəhlələrə isə yox. Göründüyü kimi N.Nərimanov türklərin vəzifə başında

[20] F.609, №276, s.5

çalışmalarını istəyir. Heç kəsin dini hisslərinə toxunmaq istəmir. Lakin onu daxildən məhv etməyə çalışırlar.

Əliyev Həbib isə deyir: «Sovnarkom alverçilərlə əhatə olunmuşdu. Bir gün mən Şirvaniyə müraciət etdim. O məni 9 saat qapı arxasında saxladı. Nəhayət, mən birbaşa qapını açıb içəri keçdim. O, məni kabinetdən qovdu. Mən N.Nərimanova bildirdim ki, yerli çinovniklərin biz fəhlələrə qarşı belə münasibəti heç nə ilə araya sığmazdı. Nərimanov, çinovniklərini yığışdır. N.Nərimanov dedi ki, əgər bunu Şirvani edibsə, bu belə də olmalıdır.

Başqa bir hadisə haqqında. Mən 6 ay idi ki, partiyadan qovulmuşdum. N.Nərimanov dedi ki, sən Mirzoyanın, Sarkisyanın, Mikoyanın quyruğusan. Şirvani kimi onun ətrafında da alverçilər baş alıb gedir. Molla Baba və digərlərinin çirkin işləri haqqında danışmaq istəmirəm. Buraya komissiyanın gəlməsini tələb edirəm. Onlar utansınlar ki, öz çirkin işlərini çək-çevir etməsinlər. Bu sözlərdən aydın olur ki, N.Nərimanov iki simalı insanlarla mübarizə aparırmışdı. Milli məsələdə bütün əyintilərə qarşı mətanətlə sinə gərmişdir. O zamankı partiya komitəsinin sədri Petrovski çıxış edərək demişdir: «Bizim aramızda yoldaşlar var ki, milli məsələni başqa işlərlə qarışdırırlar. Milli məsələyə diqqət yetirmək lazımdır. Şərqdə milli məsələ çox ciddi bir işdir. Şərq xalqları bizə baxırlar ki, «necə inqilab edib Sovet hökuməti qurmuşuq»[21]. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Orcanikidze, Petrovski kimiləri Nərimanovun milli məsələyə dair münasibətini tənqid edirlər. Məsələn, Orconikidze N.Nərimanovu azərbaycanlıları

[21] F.609, iş.117, qutu 6, s.3





qızışdırmaqda, Petrovski isə Nərimanovun Orconikidzeyə yazdığı ərizələrin heç də xoşagələn olmadığını, Şərq xalqlarının taleyinə biganə qalmadığını bildirir.

Arxiv materiallarını araşdırarkən Nərimanovun milli məsələnin kəskin şəkildə irəli sürdüyünün şahidi oluruq. Məsələn, 1923-cü il 11 iyul tarixli Qara şəhərdəki zavodda keçirilmiş iclas bunun bariz nümunəsidir. N.Nərimanov türklərin (azərbaycanlıların) vəzifəyə gətirilməsini irəli sürür. Buna görə də onun əlehdarlarının sayı artır. Məsələn, Qara şəhərdəki zavoda iclasda Qafanov adlı məruzəçi bildirir ki, Azərbaycanda milli məsələ düzgün aparılır. Düzdür, bizdə əvvəllər vəzifədə olan türklərin sayı az idi. Çevrilişdən sonra türkləri bacardıqları işə qoyurlar. Əsədulla adlı digər məruzəçi isə çıxış edərək deyir ki, Şərkis, Axundov və başqaları çox yaxşı işçidirlər. N.Nərimanov həmişə şovinist siyasəti yeridir. Bir konfransda mənə yaxınlaşıb dedi ki, sən erməniləri nə çox tərifləyirsən. Bizdə üç savadsız türk işləyir. Əgər biz milli məsələ nöqteyi-nəzərindən yanaşsaq, onda işdə uduzarıq».[22] Kiçik bu epizodla biz Nərimanovun öz millətini sevən, onun daima yüksəlməsinə çalışan canlı portiretinin şahidi oluruq. Burada alovlu şairimiz S.Vurğunun bir parça şeiri yadıma düşdü:

Deməyin, Vurğunu gəldi-gedərdi,
Unutmaz bu oba, bu ellər məni.

Bu sözləri N.Nərimanov haqqında da demək olar.

Ömrü boyü xalqının tərəqqisi uğrunda çalışan Nərimanov yaşadığı dövrdə hərtərəfli təzyiqlərə məruz qalırdı. Lakin öz idealından dönmürdü.

[22] Yenə orada, s.4

1923-cü il 11 iyulda Qara şəhərdə zavoddakı iclasda əsasən Nərimanovun mərkəzə yazdığı milli məsələ ilə bağlı məktubu müzakirə obyektinə çevrilir. Bu iclasda «sapı özümüzdən olan baltalar»ın da Nərimanovun əleyhinə çıxış etdiklərinin şahidi oluruq. Beləki, Pirverdiyev adlı şəxs deyir ki, mərkəzə çatdırılıb ki, Azərbaycanda milli siyasətin həyata keçirilməsində şüurlu surətdə səhvlərə yol verilir. Bu belə deyildir. N.Nərimanov bəy və xanları müdafiə edir. biz aşağı dairələr heə nə edə bilmirdik. Qırmızı Ordu xan və bəylərin əmlakını müsadirə edib, onları ölkədən sürgün etmək istəyərkən Nərimanova müraciət etdilər. N.Nərimanov onlara kömək etdi. Fəhlələrə isə Nərimanov heç bir köməklik göstərmirdi. Nərimanovun apardığı siyasət aşağılarla əlaqəni kəsirdi. Nərimanovun kim əleyhinə çıxış edirdisə o həmin adamları özündən uzaqlaşdırır və öz nəzərindən silib atırdı».

Bu bədbəxtlər ona görə N.Nərimanovu tənqid edirdilər ki, nəyə görə Nərimanov deyir ki, fabrik, zavod komitəsində türklər azlıq təşkil edir. nəyə görə rəhbər vəzifələrə türklər yox, Mikoyan, Mirzoyanlar gəlir? N.Nərimanovün Moskvaya getməsi onları sevindirirdi. Pirverdiyev – Nərimanov getdi. Biz indi rahat nəfəs alarıq».

İzzət Hüseynov – mən qeyd edirəm ki, N.Nərimanov düşmən mövqeyində durur. Nərimanov deyir ki, xalq təhsili aşağı səviyyədədir. Bu belə deyildir (Lenin adına fabrikdə toxucuların iclası, 1923-cü il 10 iyul)[23].

Qara şəhərdəki zavoda (1923-cü il 11 iyulda) Abdinov diktator Nərimanova qarşı mübarizə aparacağıq. Heç vaxt geri çəkilmərik.

Komisanskiy – Nərimanov deyir ki, məsul vəzifələrdə müsəlmanların sayı azdır. Müsəlmanlar Mirzoyana

[23] F.609, on 1., iş117, s.5





Nərimanovdan çox ehtiram edirlər. Əclafları güllələyin. Fəhlələr buna laqeyd deyillər. Öz millətimizi başqaları-nın ayağına vermək bizim millətin xüsusiyyətlərindən biriidr. Bu sözləri deməkdə məqsədim odur ki, biz həmişə erməni millətinin şirin sözlərinə aldanmışıq. Bədbəxt fəhlələr də o vaxtlar məhz ermənilərin şirin vədlərinə aldanaraq N.Nərimanova qarşı çıxırdılar. Ağacanyan – milli məsələ sözünü eşitməkdənsə bizi (türk, erməni, rus) bir qəbirdə basdırsalar yaxşıdır. Bu sözlər ilan təbiətli ermənilərin siyasətidir.

Şkiryatov – Nərimanovun yazdığı kimi bizdə milli məsələ yoxdur. Biz milli məsələni yaxşı başa düşürük. Onu N.Nərimanov başa düşmür. Əsrlər boyu erməni, rus, türk bir divar arasında tərbiyə olunubdur. Əsrlər boyu aparılan tərbiyənin dağıdılmasını Nərimanov yada salır. Biz cinayətə görə güllələnməkdən qorxmuruq. Əgər Nərimanov və Həliyevin ərizəsini oxusaq görərik ki, eyni tarlanın giləmeyvəsidirlər.

Eleçkiy – Nərimanovun yalan və böhtan ərizəsinə görə partiyadan çıxarılmasını təklif edirəm.

Göründüyü kimi bu iclasda da Nərimanovu hərtərəfdən qılınclayırlar.

Arxiv materiallarını araşdırarkən milli məsələ ilə Nərimanovun fikirlərinə qarşı 1923-cü il 11 iyulda Balaxanı, Sabunçu, Ramana sənaye rayonlarının birləşmiş konfransında da nümayəndələr çıxış etmişlər.

Yaroslavski – milli əlamətə görə partiyadan kimi çıxardıblar? Onların Nərimanova münasibəti Aşumov, Şirvani, Ələkbər babayevin partiyadan çıxarılmaları partiyaya yox, dinə münasibətinə görə olmuşdur.

Musayev Qədir – N.Nərimanov BK-ə etirazını bildirir ki, 7-ci konfransa nümayəndələrin tərkibinə görə erməni, rus, (cuhud) yevrey daha çoxluq təşkil edir.

Sultanov – Nərimanov bildirir ki, qolçomaqlar kənddə böyük təsir gücünə malikdirlər. Onlardan nümayəndə seçmək lazımdır.

Zemlinskiy – Nəyə görə biz Nərimanovun gizli işlərindən xəbər eşitməmişik. Şaumyan mənə Mikoyanı ümidverici bir adam kimi tövsiyə etmişdir.

1920-ci ildə Azərbaycanın qurultayına bizə yumşaq təbiətli – şaltay-baltay vuran Nərimanov kimi adamlar lazım deyildir.

Konfrans Nərimanovun partiya əleyhinə çıxışlarını tanıyır və onun sənədlərini MK-yə göndərir. Beləliklə, Nərimanovun milli məsələyə dair göstərişləri Sovet hökumətinin düşmənlərinin əlində bir oyuncağa çevrilərək sovet əks təbliğatında əksiinqilabi silaha çevrilir. N.Nərimanov və onun tərəfdarları milli məsələdə Bakı komitəsinin düzgün mövqedə olmadığın bildirir. Konfransda deyilir ki, biz şovinistlərə qarşı mübarizə aparmalıyıq.

Konfrans Nərimanovu cəzalandırmağı tələb edir və bildirir ki, belə provokasiya xarakterli çıxışlara yol vermək olmaz. N.Nərimanovun irəli sürdüyü ittihamnamələr bizim düşmənlərin əlində bir alətdir. Anti-marksist xarakter daşıyır. Milli hissləri qızışdırır[24]. Bütün bu deyilənlərdən aydın olur ki, Nərimnovun milli məsələyə dair fəlsəfi görüşləri həm öz millətimizdən olan bəzi dövlət məmurlarını, yaltaqları və həm də digər millətin nümayəndələrini qıcıqlandırır. Onlar Nərimanova qarşı kompaniya təşkil edirlər. Bu mənada N.Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair»

[24] F.609, on. 1, iş 117, k.6, s.25





(İ.V.Stalinə məktub) kitabında özü bu məsələləri xarakterizə edərək yazır: «Mən Qarayevi yetkinləşməmiş bir oğlan uşağı kimi, Hüseynovu aşkar qatı millətçi kimi tanıyırdım».

Hələ dünənə qədər M.D.Hüseynov, məni ona görə söyürdü ki, mən bir kommunist kimi 19-cu ildə azərbaycanlı kütlələrə Rusiya fəhlələrilə birləşməyi təklif edərkən, millətin mənafeyini satmışam.

İndi isə 20-ci ildə o mənə qarşı çıxış edərək, hər yerdə məni millətçi kimi qələmə vermək istəyir.

Hüseynov yoldaş Çiçerinə yazır: «N.Nərimanov sağ qanadda durur, mənsə sol, belə bir şəraitdə çətin ki, onunla işləmək mümkün olsun»[25].

Göründüyü kimi M.D.Hüseynov, Ə.Qarayev «müsəlman fəhlələrinin inkişaf səviyyəsini qaldırmağın zəruriliyi haqqında mənim tələblərimdə milli meyl görürdülər»[26].

Deməli, Nərimanovun yazdığı kimi azərbaycanlıları hər tərəfdən sıxışdırırdılar. Bu da təsadüfi deyildi. Çünki BK-nin katibi D.Sərkiş və onun yoldaşları müsəlman fəhlələri partiyadan çıxarır, sonra onlar danışdıqda «millətçi» damğası vururdular.

N.Nərimanov yazır: «Qara şəhər kimi bir rayonda müsəlman fəhlələr üçün türk dram truppasının açılışı yalnız 1923-cü il fevralın 18-də oldu, halbuki elə burada rus dram teatrı iki ildir ki, fəaliyyət göstərir».[27]

BEKA-da işləyən Mikoyan, Sərkis, Mirzoyan xəbərçiliklə yaşayır və hər yerdə çasusları vardır. Bu qrupun fəaliyyətini tənqid edənləri millətçi adlandırırlar.

[25] Nərimnov N.Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktəb). Bakı:Azərnəşr, 1922, s.18
[26] Yenə orada, s.19
[27] Yenə orada, s.20

N.Nərimanov yazır ki, zavod komitələrində olan rus və ermənilər fəhlələrə zorakılıq göstərirlər.

1923-cü ilin mayında Azərbaycanın birinci Sovetlər qurultayı oldu. Nərimanov bu qurultayda çıxış etdi. Nərimanov bu qurultayda Lominadzenin (1920-ci illərdə AK (b) PBK və MK katibi olmuşdur) Azərbaycan kəndlərində apardığı siyasətə qarşı çıxmışdır. Belə ki, Lominadze bütün bəy malikanələrini yandırmağı əmr etmiş və bununla da kəndlilərə inqilabın baş verdiyini hiss etdirmək istəmişdir. Rusiyada da belə metoddan istifadə edilmişdir. Nərimanov buna etiraz edir və deyir ki, Rusiyada bu mülkədarları yuvalarından qovmaq məqsədi ilə edilmişdir, lakin Azərbaycanda bəy və mülkədarların yuvaları çoxdan boşdur, çünki bu yuvaların sahibləri çevrilişin elə birinci günü qaçmışdılar. Kasıb kəndliyə yaxşı olmazmı ki, deyək o, bəyin malikanəsinə köçsün, çünki indi o bu malikanənin sahibidir. Bu daha yaxşı olar və malikanələr salamat qalar.

1923-cü il 10 iyulda Lenin adına fabrikdə toxucuların iclası keçirildi. Bu iclasda milli məsələ ilə əlaqədar çıxışlar oldu. Bildiyimiz kimi milli məsələ XII qurultayda müzakirə obyektinə çevrildi. Bu iclasda göstərilirdi ki, milli məsələ ən qaynar, ziddiyyətli məsələdir. Yaroslavski çıxışında göstərir ki, bütün milil respublikalarda yerli işçilərdən yeni kadrlar hazırlanır. Sultan Qaliyevin məsələsi hamıya məlumdur. Onu partiya sıralarından çıxartdıq. Ona görə ki, milli məsələyə dair bir neçə adamın apardığı siyasət onun xoşuna gəlməmişdir. Mərkəzdən belə xəbər gəlir ki, Azərbaycanda milli məsələ düzgün aparılmır. Belə ki, türk millətindən olan işçilər vəzifədən uzaqlaşdırılır.

Əsəd Əliyev öz çıxışında bildirir ki, Molla baba yanıma gələrək mənə məlumat verdi ki, ayrı-ayrı fəhlələr arasında mən təbliğat aparmışam ki, onlar partiyadan çıxsınlar. Bundan





başqa o bildirdi ki, Nərimanovu Azərbaycandan geri çağırırlar. Bütün Azərbaycan məhv olur, Nərimanovun gedişinin əleyhinə çıxmaq lazımdır. Mən bildirdim ki, əgər N.Nərimanovu geri çağırırlar, deməli belə lazımdır. Bizim etirazımızın əhəmiyyəti yoxdur. Molla Baba deyir ki, fars və türkləri işdən qovurlar. Bizim dildə qəzet çıxmır. Bu belə deyildir. Pirverdiyev bildirir ki, Mərkəzə xəbər çatıbdır ki, Azərbaycanda milli məsələdə şüurlu surətdə səhvlərə yol verilir. N.Nərimanov bəy, xanları, qırmızı ordudan xilas etdi. Onlara kömək əli uzatdı. Fəhlələrə bunu etmədi. N.Nərimanov intriqa aparırdı. Kim onun əleyhinə çıxsa idi o, həmin adamları uzaqlara köçürür və öz nəzərindən silib atırdı. N.Nərimanov deyir ki, fabrik, zavod komitələrində türk yoxdur.

Ermənilərin Bakıda hakimiyyət başına gəlmələri Nərimanovu çox əsəbləşdirirdi. Həqiqətən də ermənilər Bakını erməniləşdirmək istəyirdilər. Belə ki, XX əsrin əvvəllərində ermənilərin katalikosu Bakıya gəlib bir neçə gün qalır. Gedəndə şəhər barədə təəssüratını xəbər alırlar. O, kədərlə, təəssüflə deyir ki, bir put dərdlə gəlmişdim, min putla da gedirəm, mən elə bilirdim ki, Bakı da Tiflis təki erməni şəhəridir, hər şey bizimdir, amma yox, Bakı müsəlmanlarındır, bu dərd məni öldürür[28]. Göründüyü kimi, ermənilər öz siyasətlərini həyata keçirmək üçün birinci növbədə Bakıda məsul vəzifələrə yiyələnmişdilər. Lakin Nərimanov kimi ziyalılarımız, onlara qarşı mübarizəni dayandırmırdı. Nərimanov Bakını erməniləşdirmək planı haqqında deyirdi: «Lakin bunu çoxları başa düşmürdülər. Bunu hazırda AKP MK katibi yoldaş S.Kirov da başa düşmür, bu adama

[28] Süleymanov M. Eşitdikdərim, oxuduqlarım, gördüklərim. B., Azərnəşr, 1989, s.96

Mirzoyanla əlbir fəaliyyət göstərmək təlqin edilmişdir. Hətta əgər Kirova təlqin edilməsəydi də o bu kompaniyanın təsiri altına düşərdi, çünki bu kompaniyanın fəaliyyəti onun daxili aləmini məmnun edirdi. Bu kompaniyanın fəaliyyəti isə məhz Azərbaycanın simasızlaşdırılmasına yönəlmişdir. Bir tərəfdən kommunizm bayrağı altında daşnaklar öz işlərini görür, digər tərəfdən keçmiş eserlər tədricən və inadla Sovet hakimiyyətini içəridən dağıdırlar»[29]. Bax, bütün bunlar Nərimanovu düşündürür, narahat edirdi. Bu mənada Nərimanov yazır: «Mən bildirirəm ki, bu ağılla düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır. Lakin elə işimin ilk günlərindən açıq deyirəm: bir çox mülahizələrə görə hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq lazımdır. Zaqafqaziyanın keçmişi, ümumiy-yətlə və xüsusilə 18-ci ildə Bakıdakı vəziyyət bu məsələ üzərində düşünməyə vadar edir». N.Nərimanov «hal-hazırda Azərbaycanda Azərbaycanı təmsil edən bir partiya vardırmı? Mən təsdiq edirəm: belə bir partiya yoxdur və mirzoyanlar öz iyrənc siyasəttlərindən, Azərbaycanı simasızlaşdırmaq siyasətindən əl çəkməyənə qədər olmayacaqdır». Həqiqətən də Azərbaycanda bir nəfər də olsa partiya rəhbəri yox idi. Bütün dairələrdə erməni, gürcü və ruslar işləyirdi.

Bütün bu çıxışlardan görünür ki, onlar Nərimanovun Azərbaycandan uzaqlaşdırılmasında böyük canfəşanlıq göstərmişlər.

[29] Qurbanov Ş. N.Nərimanov ömrünün son illəri. B., Azərnəşr, 2003, s.55





## II FƏSİL

## XALQ ÜÇÜN YANAN ÜRƏK

### §1. Azərbaycandakı erməni qüvvələrinin siyasəti

Milli məsələ RK (b) P XII qurultayında qoyulmuşdu. 12-ci qurultaya Azərbaycandan Nərimanov seçilmişdir. Nərimanovun özünün yazdığı kimi, «Siyasi Büronun qərarına əsasən məşvərətçi səsə malik idim»[30]. Azərbaycandan Qasımov Yusif, keçmiş müsavatçı (müəllim) idi. Qurultay 1923-cü il aprelin 17-25-də Moskvada keçirilmişdi. Qurultay milli məsələlərə dair qərarda dünya xalqlarının milli-azadlıq hərəkatı üçün RK (b) P-nin milli siyasətinin bir nümunə kimi əhəmiyyətini göstərmişdi. Bununla əlaqədar olaraq qurultay o vaxtlar mövcud SSRİ xalqları arasında təsərrüfat və mədəni bərabərsizliyin aradan qaldırılmasının zəruriliyini qeyd etmişdi. Qurultay milli məsələyə dair qətnamədə hakim millətçilik şovinizmi və yerli millətçiliklə qəti mübarizə aparmaq zəruriyyətini qeyd etmişdi.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, erməni millətçisi, daşnak Mikoyan hər vasitə ilə çalışırdı ki, Nərimanov Bakıya gəlməsin. Çünki bilirdi ki, Azərbaycanda hamı N.Nərimanova hörmət edir, onun xalq kütləri içərisində nüfuzu vardır. Mikoyan deyirdi ki, Nərimanovu inqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin. O,

[30] Nərimanov N. Ucnarlarda inqilabımızın tarixinə dair. B., Azərnəşr, 1992, s.24

özünü beynəlmiləlçi, Nərimanovu millətçi adlandırırdı. Fəhlələrin xoşuna gəlmək üçün Mikoyan birinci hücumu komissarlara yönəldir, guya onlar «avtomobillərdə» gəzməkdən başqa bir şey bilmirlər.

Mikoyanın ikinci addımı: «varlıların» əmlakını fəhlələrin xeyrinə müsadirə etmək olmuşdur. Mikoyan mərkəz tərəfindən geri çağırıldıqdan sonra Sərkis nəyin bahasına olursa-olsun BK-nin katibi olmaq istəyir və istədiyinə nail olaraq Mikoyanın xəttini davam etdirir. Belə ki, o, hər şeyi qeyri-qanuni olaraq müsadirə edirdi. Onun müsəlman fəhlələri içərisindən «ələ alınmış adamları» var idi ki, onlar hər yerdə Sərkisin əməllərinə haqq qazandırırdılar. Bu zaman türk və fars qəzetləri yazırdı ki, hər yerdə bolşeviklər müsəlman qadınlarının zorla tumanlarını (yubkalarını) alıb, əldən-ələ ötürürdülər (bu isə qadının namusuna toxunmaq deməkdir).

Yuxarıda danışdığımız məsələlərdən aydın olur ki, erməni daşnakları – Sərkis, Mikoyan azərbaycanlılara olmazın müsibətlər törətmişlər. Nərimanov «Ucqarlarda inqişabımızın tarixinə dair» əsərində bu məsələnin şərhini vermişdir. O, bu əsərində, nəinki Sərkis, Mikoyanları, eyni zamanda onlara yaltaqlıq edərək, xalqına qənim kəsilən M.Davud Hüseynovu, Ə.Qarayevi, RAxundovu və başqalarının iç üzlərini açıb göstərmişdir. Bu əsərdən görünür ki, Nərimanov düşmənlərə qarşı mübarizədə təkdir. Azərbaycan xalqı Sərkislərin, Mirzoyanların və digər yanların zülmündən əzab çəkirlər, Nərimanovun tərəfdarı olan bəzi fəhlələr – Molla Baba, Ələkbər və s. Mirzoyanın təkidi ilə işdən qovulur, ailəsi küçəyə atılır. Erməni daşnaklar çox çalışırlar ki, Nərimanovu öz təsirləri altına alalar, lakin buna nail ola bilmirlər. Nərimanov yazır: «Mikoyandan sonra BK-nin katibi Sərkis olur, Sərkisdən





sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparov olacaq və i.a». Sonra Nərimanov deyir: «Bir çox mülahizələrə görə, hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir»[31].

Göründüyü kimi, Nərimanov erməni daşnakların vəzifəyə gəlməsinin qəti əleyhinə olmuşdur. Bütün bu sözlərin sonralar doğru olduğu özünü göstərirdi. Belə ki, «Sovet hakimiyyətinin müdafiəçiləri» adlanan yaltaq daşnaklar 1918-ci ildə əliuşaqlı qadınlara qarşı alçaldıcı hərəkətlər edir, əsir aparırdılar. Çox qəribədir ki, Nərimanov bütün bu hadisələrin şahidi olmuşdur. Özünün qeyd etdiyi kimi bu haqda susmaq yaxşıdır. Bu onun faciəsi idi. Bəlkə də o təklənmişdi, tək idi. lakin susmaq ona çətin olmuşdur. Nərimanovun yazdığı kimi daşnakların fəaliyyəti Azərbaycanın simasızlaşdırılmasına yönəldilmişdir. Şərq xalqlarının azadlığının ilk carcısı olan Nərimanovun faciəsi o idi ki, qarşısındakı düşməni (Sovet hökumətini) görmürdü, onun ikiüzlü siyasətinə inanırdı. Özünün yazdığı kimi, Mərkəz Serqo Orconikidzeyə, Mikoyana, Şaumyana inanırdı. Nərimanov özü etiraf edirdi ki, ucqarlarda milli təmayül Mərkəzin özü və ya onun işçiləri tərəfindən yaradılır. Belə ki, Mərkəz müəyyən sahəni özünə tabe edərək, nəinki heç bir şey vermir, hətta həmin Respublikanın axırıncı tikəsini belə əlindən alır. Bütün bunlar qeyri-normal qarşılıqlı münasibətlər yaradır. Bu da ki, Mərkəzin istilaçı siyasətindən xəbər verir. Göründüyü kimi Nərimanov Sovet hökumətinin qeyri millətlərə qarşı yeritdiyi əks siyasəti sonralar etiraf etmişdir. Belə ki, o məsələn, dəmir yollarını birləşdirmək, proletar inqilabının tələbidir, lakin müstəqil

[31] Nərimanov N. Ucqarlarda inqilabçımızın tarixinə dair. B., Azərnəşr, 1992, s.31

respublikanın müəyyən ərazidə dəmir yoluna olan nüfuzunu, elə əlindən almaq ki, həmin respublika məlum yükü öz ərazisində bir məntəqədən başqa bir məntəqəyə göndərmək üçün mərkəzi orqanın icazəsi olmadan müstəqil aparmaq hüququna malik deyildir. Bu artıq Sovet hakimiyyətinin hər cür prinsipinə ziddir. Deməli, Sovet hökumətinin sözü ilə işi, əməli bir-birini təkzib etmişdir. Bütün bunlar da sözsüz ki, yetmiş il ziddiyyət yaratmış, milli məsələni dərinləşdirmişdir. Bütün bunlar Nərimanovu düşündürür və etiraz səsini ucaltmağa başlayır. Nərimanov partiyada müsəlmanların sayının azalmasını bildirərək, Mərkəzə inamsızlığın artmasını göstərir. Eyni zamanda o, türk dili dərslərinin azalması hesabına, rus dili dərslərinin artmasından narahat olduğunu «Bəzi yoldaşlara cavab» adlı məqaləsində çap etdirmişdir.

Nərimanov həmçinin bir dövlət xadimi kimi dini mərasimlərin, adət-ənənələrimizin əleyhinə olmamışdır. O, aşura günü Hüseyni yad edənlərə heç də pis baxmamışdır. Məsələn, fars fəhlələrinin iclaslarından birində Nərimanov Azərbaycan Respublikasının başçısı Ağamaloğlu Hüseyni qorxaq kimi xarakterizə etmişdi və buna görə də fəhlələr onu məzəmmət etmişdilər. Nərimanov yazır ki, qorxaq o deyil ki, yetmiş nəfər pis silahlanmış adamla özündən on dəfə artıq qüvvətli olan düşmənlə döyüşür. Qorxaq odur ki, vəzifəsindən ötrü alçaqcasına yalan danışır, partiya üzvlərini aldadır, onları qırmızı əsgər güllələrindən qanı tökülən fəhlələrə qarşı silahlandırır. İmam Hüseyn isə öz vicdanını qızıla satmır və Yezidə qarşı vuruşub həlak olur. Onlar isə yəni «sapı özümüzdən olan balta»lılar Kirov və Mirzoyanın təkidi ilə yürüşü dayandırmışlar və nəticədə toqquşma baş vermişdir.





«Ucqarlarda inqilabımızın tarixinə dair» məqaləsində Nərimanov yazır ki, türk tələbələrinin, əgər 5-nəfəri təqaüd alırsa, ruslardan isə 30 nəfər təqaüd alır. Fabrik-zavod-şagirdlik məktəbləri adlanan təhsil ocaqlarının sayı 17, burada rus uşaqlarının sayı 1192, müsəlman uşaqlarının sayı isə – 26-dır. Bütün bu milli seçkilik siyasəti yeridən Mirzoyan və Kirovdur. Nərimanovu bütün bunlar narahat edir və bildirirdi ki, Azərbaycan zəhmətkeşlərinin səadətini belə şəxslərə etibar etmək olmaz. Sonra Bakıda uşaq evlərinin sayına nəzər yetirsək, görərik ki, uşaq evlərinin sayı 37, uşaqların sayı 3773, onlardan türk uşaqları 527, rus uşaqları 1858 nəfərdir.

Göründüyü kimi bütün bu faktlar, hələ Sovet hakimiyyətinin ilk illərindən etibarən, Azərbaycan xalqına qarşı yeridilən milli ayrı-seçkilik siyasətinin nəticəsidir. Azərbaycanın məsul vəzifələrində işləyənlərin əksəriyyəti, demək olar ki, hamısı milliyyətcə erməni və rus olmuşdur. Bütün bunlar Nərimanovu narahat edirdi. Həmçinin onu türklərin öz ana dilində istər yazılı, istərsə də şifahi şəkildə müraciət edə bilməmələri də narahat edirdi. Çünki bu müraciət rus dilində olmalı idi. Ruslar, yəhudilər, ermənilər isə türk dilində danışmırlar. Bütün bunlar bir daha Sovet hökümətinin Azərbaycana, onun xalqına olan müstəmləkəçilik siyasətinin bariz nümunəsini sübut edir. Sovet hökuməti milli siyasət yeridərək xalqımızı süngü gücünə idarə edirdi.

Nərimanov Azərbaycanı gücdən salmaq istəyən Hüseynovlara, Qarayevlərə, Axundovlara qarşı mübarizə apararaq, onların daxili aləmlərini, iç üzlərini «Ucqarlarda inqilabımızın tarixinə dair» məruzəsində açırdı. Bu insanlar Nərimanovu xalqın gözündən salmaq

üçün dəridən-qabıqdan çıxırdılar. Xanbudaqov, Cəbiyev Həbib, Rəhim Hüseynov, Cahangir Nağıyev, M.P.Hüseynov, Ə.Qarayev Nərimanovu Azərbaycandan uzaqlaşdırmağa çalışırdılar. Belə ki, bu satqınlar Mirzoyan və Serqo kimi daşnaklarla əlaqə saxlayır və Nərimanova qarşı çıxış edirdilər. Xanbudaqov Mirzoyan tərəfindən AKP MK-ya katib seçilir və bütün qəzalara öz qohumlarını göndərərək, onlara tapşırır ki, heç yerdə Nərimanovun adını çəkməsinlər və onu heç yerə seçməsinlər. S.Orconikidze və Mirzoyanın əlində bir oyuncağa çevrilən M.D.Hüseynov daima Nərimanovun əleyhinə olmuş və onu Bakıdan uzaqlaşdırmağa çalışmışdır. O, Azərbaycandan olan türkləri Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirdi. Xanbudaqov, Petrovski və Serqo ilə birlikdə Nərimanovun qəti əleyhdarı idilər. Onlar Nərimanova qarşı çıxış etdiklərinə görə Mirzoyan tərəfindən partiyada saxlanmışdılar. Dağlaq Qarabağ Mirzoyanın təsiri ilə Muxtar Vilayət elan edilmişdir. Bu haqda Nərimanov yazır: «Mənim vaxtımda bu mümkün olmamışdır, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndliləri özləri bunu istəmirdilər»[32]. Göründüyü kimi Qarabağ əzəli Azərbaycan torpaqlarıdır, ermənilər sonradan buraya gəlmişlər. *Onu da deməak lazımdır ki, bir neçə il öncə* ermənilər Qarabağa gəlmələrinin 150 illiyi münasibəti ilə abidə ucaltmışdılar. Sonra Nərimanov yazır ki, Gəncənin dağlıq hissəsi haqqında da Mirzoyan məsələ qaldırır. Bütün bunların arxasında S.Orconikidce və Stalin durur. Onlar Azərbaycanın taleyini erməni

[32] N.Nərimanov. «Ucqarlarda inqilağımızın tarixinə dair». B., Azərnəşr, 1992





daşnaklarına tapşırmışlar və bunun nəticəsidir ki, 70 ildən sonra biz Qarabağ torpaqlarını tamamilə itirdik. Deməli, Qarabağa muxtariyyəti Nərimanov yox, o vaxtlar hakimiyyətdə olmuş Stalin vermişdir. Bu mənada Nərimanov V.İ.Leninə məktubunda yazır: «Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhvdir»[33]. Göründüyü kimi bu məktubla Nərimanov Mərkəzin Azərbaycan torpaqlarının qeyri-şərtsiz Ermənistana verilməsinin, gələcəkdə çox ağır nəticələri olacağını qabaqcadan bildirildi. Fəqət Nərimanov tək idi. O heç nə edə bilmirdi. O, bu məktubla bildirir ki, üç respublikadan birinci olaraq Azərbaycanda Sovet hökuməti quruldu. Sovetləri birinci qəbul edən Azərbaycan həm ərazisini və həm də müstəqilliyini itirdi. Nərimanov yazır: «Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs bütün Azərbaycanın kəndliləri?[34]» Artıq bu, epizodla biz Nərimanovun üsyankar səsini eşidirik. O, ürəkdən bağlandığı bolşeviklər partiyasının ikili simasının şahidi olur. Lakin artıq gecdir. Heç nəyi geri qaytarmaq

[33] N.Nərimanov. «Ucqarlarda inqilağımızın tarixinə dair». B., Azərnəşr, 1992, s.62

[34] Yenə orada, s.63

mkün deyildir. O, yazır ki, əgər bizim dəlillərə diqqət irməsəniz, məcbur olacağıq ki, bizim geri ırılmağımız barədə Mərkəz qarşısında məsələ qoyaq. la qoy tarixən dolaşıq milli məsələləri asanlıqla həll nlər bura gəlsinlər. Bax, budur Nərimanovun faciəsi. kdən inandığı Mərkəz ona xəyanət edir. Burada bir lrik söz yadıma düşdü: «Zor hökm sürən yerdə qanun süzdür». Həqiqətən zorla, hökmlə xalqları özünə tabe n hökmdarların qanunları işləməyəcəkdir, gücsüz aqdır. «Parçala və hökm et» şüarı ilə xalqları öz imiyyəti altında, 70 ildən çox saxlayan, Sovet imiyyətinin son aqibəti, məhz onun dağılması ilə i.

Göründüyü kimi belə bir insan milli məsələlərdə si quldurlarla təkbətək vuruşurdu. O, təkcə erməni və ülərdən yox, eyni zamanda öz millətindən də xəyanət irdü. M.S.Ordubadi xatırlayır ki, 1923-cü ildə skvaya yazdığı şikayət məktubu Bakıda müzakirə arkən onun partiyadan qovulması təklifi ilə razılaş-an kommunist Ağazadə Nərimanovun güllələnməsini if etmişidr. Bax, budur Nərimanova satqınçılıq edən nlar, hansı ki, sonralar cəzalarına çatdılar.

Qeyd etmək lazımdır ki, 1937-ci ildə də baycanlı satqınlar ermənilərlə əlbir olur, xalqımızın əyaqətli, görkəmli şair və yazıçılarını güllələmişlər. manov millətçiliyin, milli təmayülün Mərkəz və ı işçiləri tərəfindən yaradıldığını bildirirdi. manov özünün millətçi olmağının mahiyyətini nə izah edərək yazır: «Yerli mənafeyin müdafiəsi kəz müvəkkillərinin dilində milli təmayül, lakin r respublikaların zərərinə Sovet Rusiyasının afiəsi həmin dildə beynəlmiləl aktı adlandırırdı».





Nərimanov fəaliyyətinin əvvəlindən ömrünün sonunadək xalqımızın maddi-mənəvri və milli dəyərlərini ön plana çəkmişdir. Onun ürəyi Azərbaycanla döyünürdü. Əgər o, baş nazir vəzifəsində olmasaydı, milli inkişafımıza böyük zərbə vurulmuş olardı. O, hər vasitə ilə Azərbaycan iqtisadiyyatının inkişafına, xalqının milli-mədəni səviyyəsinin yüksəlişinə çalışırdı. Məhz buna görə də Ermənistanın Azərbaycandakı nümayəndəsi 1920-ci ildə Yerevana yazır: «N.Nərimanov kommunistliyini çox tez-tez unudur və özünün milli türk simasını açıq nümayiş etdirir»[35].

N.Nərimanovun bir kommunist kimi milli təmayüllü olduğu M.S.Ordubaninin «Nərimançılıq» adlandırdığı xatirələrindən aydın görünür. O, yazır: «1920-ci illərdən başlayaraq doktor N.Nərimanovun Komissarlar Şurasının sədri olduğu zamanlardan «Nərimançılıq» adı altında millətçi bir qrupun meydana çıxdığını eşitməyən az idi». sonra M.S.Ordubadi bu ideyanın nədən ibarət olduğunu müəyyən etməyə çalışır: «Onun bütün bəhsləri özünün təzə bir əqidə müəssisəsi olduğunu göstərirdi» və bu əqidəni açır. «Nərimançılıq deyirdi ki, xalqların irq və adətləri müxtəlif olduğu kimi düşüncə və zehniyyətləri də bir-birindən ayrıdır»[36].

Ümumiyyətlə, Nərimanov milli təmayülündə siniflərin barışdırılması mühüm yer tuturdu.

Qeyd etmək lazımdır ki, Nərimanov bolşeviklər kimi dindən imtina etmirdi. O, belə hesab edirdi ki, dövlət millətin dini etiqadı ilə barışmalıdır. Bolşeviklər hər şeyi zor, zülm gücünə həll edirdilər. Nərimanov isə

[35] Ş.Qurbanov N. Nərimanov ömrünün son illəri. B., Azərnəşr. 2003, s.46

[36] Yenə orada, s.46

belə hesab edirdi ki, bütün məsələlər milli barışıq hesabına həll olunmalıdır. Onun bu ideyaları «Nadanlıq» dramanıda, «Bahadır və Sona» əsərində öz əksini tapmışdır.

Nərimanov bütün respublikaların tam müstəqil olmasını irəli sürürdü. O, varlıların evlərinin bolşeviklər tərəfindən talan edilməsinin əlehdarı idi. Nərimanov göstərirdi ki, orta sinifi əsəbləşdirmək olmaz. Elə etmək lazımdır ki, müsadirə olunmuş şeyləri götürməkdən fəhlələr imtina etsinlər və bu belə də oldu. Belə ki, fəhlələr kasıbların da qarət edilməsini bildikdə bu, şeylərdən imtina etdilər. Bütün çətinliklərə baxmayaraq, Nərimanov milli-mənəvi dəyərlərimizi yüksək qiymətləndirirdi. Belə ki, Bakıda o, M.Ə.Sabirə heykəl qoydurmuş və onun açılışında iştirak edərək bildirmişdir ki, gələcəkdəki türk şairlərimiz Sabirin ruhu ilə ruhlanmalıdır. O, teatr işçilərini və İrandan gələn tələbələri hərbi çağırışdan azad etmişdi. Bakıda «Şərq xalqları» jurnalının buraxılması haqqında qərar qəbul etmiş, müəllimlər və qadınlar qurultayını keçirtmiş, bütün teatr kollektivləri və məktəbləri hökumət himayəsi altına almışdır. Universitet professorlarının və bütün işçilərinin əmək haqqını qaldırmışdır. Bundan başqa, Nərimanov 1894-cü ilin aprelində Bakıda ilk kütləvi xalq riaətxanası açmağa nail oldu. Nərimanov adını almış bu qiraətxana təkcə Zaqafqaziyada deyil, Rusiya və Şərq ölkələrində rəğbətlə qarşılandı. Bütün maarifpərvər ziyalılar bu, qiraətxanaya toplaşırdılar. Nərimanov həmçinin Azərbaycan dilində mətbuat orqanı yaratmağa təşəbbüs edir. 1899-cu ildə mətbuat işləri üzrə Baş idarəyə göndərdiyi müraciətində Azərbaycan dilində «Təzə xəbərlər» adlı həftəlik qəzet nəşr etmək arzusunda





olduğunu bildirir. Lakin Nərimanovun Azərbaycan dilində 1897-1900-cu illərdə qəzet və jurnal nəşrinə çar hökuməti icazə vermədi.

Bütün bunlara baxmayaraq Nərimanov öz əqidəsindən dönmədi. O, Bakıda Ali Pedaqoji İnstitutun banisi və hamisi oldu. Nərimanov həmçinin, Politexnik texnikumunu və Ali musiqi Akademiyasını təşkil etdi və «Musiqi alətlərinin milliləşməsi» barədə dekret verdi. Qara şəhərdə «müsəlman fəhlələri üçün türk dram truppasının» yaradılmasına və truppanın fəaliyyətinə nail oldu.

1918-ci ildə belə bir xəbər yayılır ki, bolşeviklər Quranı yığıb yandırırlar. Bu münasibətlə kənd mollaları və müəllimləri üçün bir yığıncaq təşkil edildi. Bu iclasda N.Nərimanov çıxış etdi. O, çıxışında bildirirdi ki, Məhəmməd bütpərəstliyə qarşı mübarizə aparırdı. Ona nə qızıl, nə də pul lazım idi, onun üçün ərəblərin düz əqidələri lazım idi. Nərimanov bu çıxışında dinə alver kimi baxanlara qarşı çıxır və bildirirdi ki, heç kəsi dinə məcburi inandırmaq olmaz. Ümumiyyətlə, o milli məsələlərin həllində dinə ehtiyatla yanaşmağı göstərirdi. Çünki, heç bir xalqın dini heysiyyatına toxunmaq olmaz. Nərimanov müsəlmanlarla xristianlar arasında ziddiyyətlər törədənlərə qarşı mübarizə edirdi. O, deyirdi ki, hər kim istəyir səhərdən axşamadək kilsələrdə, məscidlərdə ibadətlə məşğul olsun, bizim onlarla işimiz yoxdur. Nərimanovu müsəlman ölkələrindəki vəziyyət narahat edirdi. O, Türkiyənin, İranın ingilis kimi bir qaniçən dövlətin cəngində olduğunu ürək ağrısı ilə yazırdı: «İngilis, alman, Frangistan və qeyri Avropa

dövlətlərində hazırkı üsul-idarə dəyişilməyincə müsəlman məmləkətləri üçün müstəqil həyat yoxdur»[37].

Göründüyü kimi Nərimanov təkcə Azərbaycanla yox, bütün müsəlman Şərqinin azadlığı, istiqlaliyyəti uğrunda mübarizə aparırdı. O, 1905-ci ilədək hökumət tərəfindən qadağan olunmuş «Nadir şah» dramında yazırdı: «Hökumət qanun vermədən müqəddəm gərəkdir ki, haman hökumətdə yaşayan millətlərin adətlərini, dinlərini bilsin, sonra qanun versin»[38]. Qeyd etmək lazımdır ki, milli məsələlərdə hər bir xalqın adət-ənənələrinə hörmətlə yanaşmaq lazımdır. Bu Nərimanovun amalı idi.

Nərimanov yazırdı ki, Məhəmmədin min yüz il bundan əvvəl verdiyi qanunlar bu vaxtadək öz qüvvəsində qalmışdır. Bu qanunlar cəmiyyətin bütün sahələrində öz yerini tapmışdır. Məhəmməd peyğəmbər əvvəlcə dünya elmlərini, sonra ruha dair elmləri öyrənməyi tövsiyə edirdi. Lakin ruhanilər qəsdən bunu gizlədirdilər. Nərimanov bu meyllərə qarşı çıxırdı. Nərimanov yazırdı ki, əvvəlcə dövlət qanunu qəbul olunur və bu qanun köhnəlmiş şəriətə yox, həyatın müasir tələblərinə uyğun qəbul olunur. Məişətin təsiri altında verilən dövlət qanunları xalqı şəriət qanunlarından uzaqlaşdırır. Xalq dövlətin qanunu ilə həyat sürərkən dövlət tərəqqi yoluna qədəm qoyar. Bütün bu məsələlər «Nadir şah» əsərində verilmişdir. Belə ki, bu əsərdə Nərimanov göstərirdi ki, ruhanilərin nüfuzunu xalq arasında azaltmaq üçün Nadir məscidlərdən gələn mənfəəti yığıb mollara məvacib təyin edir ki, ruhaniləri

[37] N.Nərimanov. 1918-ci ildə çıxışı. Arxiv materialları, f.609, iş.154, s.79
[38] Yenə orada, s.80





hökumətə tabe etsin və dövlət həyatını tələb edən qanunlar versin və bununla da Nadir istəyir ki, mollaları siyasi işlərdən kənar etsin. Bütün bunlar isə Nadirin faciəli surətdə ölümünə səbəb oldu. Nərimanovun milli məsələ ruhunda yazdığı «Bahadır və Sona» əsərində isə açıq-açığına ruhani işlərinin dövlət işlərindən ayrılmasını tələb edir. Nərimanov yazır: «Mən millətlər arasında olan ziddiyyəti puç etmək istərkən bu ziddiyyət məni tələf etdi. Mən əminəm ki, bir vaxt gələcək bu ziddiyyəti inqilab hüriyyət puç edəcəkdir».[39] Lakin təəssüflər olsun ki, 70 ildən sonra milli məsələ yenidən baş qaldırdı və torpaqlarımız erməni işğalçıları tərəfindən yenidən zəbt olundu.

Nərimanov çarizmin qeyri millətlərə qarşı zorakılığını dönə-dönə əsərlərində qeyd edirdi. Bunu da Nərimanov etiraf edirdi ki, rus millətinin hüququ qeyri millətlərdən geniş və sərbəstdir. Bunu müsəlman millətinə də aid etmək olar. Rusiya hökuməti hər millətə *özlərini tanımaq məsələsini gizlində deyir*, əslində isə iş başında ruslar, yəhudilər və ermənilərdir. Bu millətlərin nümayəndələri zorla da olsa vəzifə yerlərini tutmuşlur.

Nərimanov yazır ki, bir məclisdə məndən Meçnikovun xurmanın insan orqanizmi üçün böyük əhəmiyyəti olduğunu dediyini soruşmuşlar. Mən buna cavab verdikdə, məclisdə olan bir İran konsulu gülərək dedi: «Cənab doktor! Professor Meçnikov əbəs yerə bu neçə illər zəhmət çəkib pullar xərc edibdir, çünki xurmanın mənfəətili bir meyvə olduğunu Məhəmməd 1300 il bundan müqəddəm xəbər veribdir[40]». Bu o deməkdir ki,

[39] N.Nərimanov. İctimai siyasi hərəkatlər partiyası Arxivi., f.609, iş.154, s.86
[40] Yenə orada, s.88

hər bir şey Quranda deyilibdir. Biz təbiətlə mübarizə aparmalıyıq. İnsanın tərəqqisinə, onun vəhşi halından indiki halətə düşməsinə səbəb əlbəttə bu mübarizə olmuşdur. Nərimanov burada materializmi sübuta yetirir. Nərimanov daxili düşmənləri xarici düşmənlərdən qorxulu hesab edir və belə nəticəyə gəlir ki, milli məsələni daxili düşmənlərimizə tapşırsaq, onda bu bizim ümumi işimizə ziyan vurmuş olar.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Nərimanovu bütün çıxışlarında, məktublarında millətin əhvali-ruhiyyəsi maraqlandırırdı.

Nərimanov «Kaspi» qəzetinin 42-ci nömrəsində çap edilən «Zaqafqaziya komissarlığının sosialistlərinə açıq məktüb»da göstərir ki, «Kafkazskiy raboçi» qəzetində belə məlumat yazılmışdır ki, Zaqafqaziya komissarlığı nə vaxtadək rus əsgərinin qanında çiməcəkdir» bu sözlər açıq-aşkar fitnəkar məlumatlardır.

Əslində Zaqafqaziya komissarlığı sərsəm siyasət yeridərək, rus və müsəlman əsgərləri arasında qanlı qırğınlar törədirlər. Zaqafqaziyada millətçilik siyasəti yeridilir ki, bu da kütlələrin kəskin şəkildə təbəqələşməsinə səbəb olur. Nərimanov bolşeviklərin rus soldatlarına silah verərək, müsəlman kəndlərini viran qoyduqlarını ürək ağrısı ilə yazırdı. Əslində bu silahlar müsəlman polklarına lazım idi. Zaqafqaziya komissarlığı milli məsələləri ortalığa ataraq, insanlara xəndəklər qazırlar. «Qafqaz hökumətinin» canı olan siz sosialistlər nə vaxtadək avam müsəlmanların və ermənilərin qanında çiməcəksiniz?[41]» Bu sətirləri yazan Nərimanov, xalqları bir-birinə qarşı vuruşduran sovetləri tənqid edirdi və

[41] N.Nərimanov. Məqalələr və nitqlər. Bakı, Azərnəşr, 1971, s.192, II cildlik, c.1.





göstərirdi ki, ayrı-ayrı millətləri silahlandıraraq, bir-birinin üstünə hücum edirsiniz. Əgər hadisələr bu səpkidə gedərsə, onda bütün Şərq bizdən (Sovet hökumətindən) üz döndərəcəkdir. Şərqin bütün məzlum dövlətləri bizdən nicat gözləyirlər. Şərq Qərbin imperialist siyasətinin namussuzluğundan, zülmündən ədalətsizliyindən və yalanından yorulmuşdur. Şərq Avropa mədəniyyətinin faydalı və xeyirli qüvvəsinə artıq etibar etmir və hərgah bizə olan etibarını da itirsə, o vaxt heç bir şübhə yeri qalmır ki, müsəlman Şərqi nicatı panislamizmdə axtaracaqdır, bu isə insan şəxsiyyətini hələ uzun zaman təhqir etmək üçün Şərq istibdadına geniş meydan açmaq deməkdir[42]».

Göründüyü kimi, Nərimanov Şərq xalqlarının da azadlığı, istiqlaliyyəti uğrunda mübarizə aparırdı.

Nərimanovun ictimai-siyasi fəadiyyətini tədqiq edən Ş.Qurbanov yazır: «N.Nərimanov siyasətinin əsas mahiyyəti yerli azərbaycanlı əhalinin güzəranını yaxşılaşdırmaq, hər sahə üçün milli kadr potensialı yaratmaqdır»[43]. Məhz buna görə də onu Azərbaycandan uzaqlaşdırmağa çalışırdılar.

Dilimiz, dinimiz və milli adət-ənənələrimiz Nərimanov üçün müqəddəs bir amal idi. O, milli dəyərlərimizi beynəlmiləl dəyərlərdən üstün tuturdu. O, Cümə məscidində nitq söyləmiş, dindarların təqib edilməsinə qarşı öz etirazını bildimişdir. O, Novruz bayramının ümumxalq bayramı kimi keçirilməsini qərara almış və bu münasibətlə fərarilərə əfv fərmanı vermişdir.

[42] Yenə orada, s.236

[43] Ş.Qurbanov. Nərimanov Nərimanov ömrünün son illəri. B., Azərnəşr, 2003, s.44

Nərimanov Azərbaycan dilinin dövlət dili statusu alması barədə fərman imzalamışdır. O, əmr vermişdir ki, bütün idarələrdə yazı işi rus dili ilə yanaşı Azərbaycan dilində də aparılmalıdır. Bütün bunları o, «Bəzi yoldaşlara cavab» adlı məqaləsində açıqlamışdır. Nərimanov yazır: «Türk dili (Azərbaycan) Azərbaycanda dövlət dili elan edilmişdir və Azərbaycanda bu dilin hüquqlarından və üstünlüklərindən tam şəkildə istifadə olunmalıdır. Heç kim bunu ləğv edə bilməz və heç kimə də imkan verməz ki, Azərbaycanda bu dilin mənasını, rolunu azaltsın[44]».

Bu mənada Nərimanov yazırdı: «Bir millətə məxsus məslək ümum ideal üçün bir yoldur. Ümum ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün, millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə xüsusi məsləki dalınca yeriş edə bilməz. Bu yolda yeriş etməz isə ümum müqəddəs məslək nə olmağın da düşünməz.

Özümüzə türk deyib də xüsusi bir məslək dalınca getməliyikmi? Getməliyik desəniz, özümüzü gərəkdir tanıyaq. Fəqət tanımaq üçün nə lazımdır?

Milli dil, milli məktəb, milli mətbuat və qeyri-qeyri şeylər deyilmi?[45]»

Nərimanov xalq üçün çalışırdı. Ona ürəyi yanırdı. «Millətə yardım etmək üçün cəmiyyəti – xeyriyyə baxımdır, yəni millətin yetimlərinə, korlarına, şillərinə kömək gərəkdir» – bu sözləri də Nərimanov xalq üçün deyirdi.

[44] Yenə orada, s.49
[45] N.Nərimanov. Əsərləri, B., Azərnəşr, 1956, s.205





## §2. Nərimanov və dil

Nərimanov ana dili, onun saflığı uğrrunda daim mübarizə aparmışdır. Ana dili! Nə qədər zəif, nə qədər ali, hissiyyati-qəlbiyyə oyandıran bir kəlmə! – deyən Nərimanov ana dilinin müqəddəsliyini möhtərəm olduğunu sübuta yetirir. Həqiqətən biz bu dildə söylənilən laylalarla böyümüşük, məktəb oxumuşuq, yaxşı-yamanı bilmişik, bizi yaradanı tanımışıq. Nərimanov yazır ki, ana dilində mahnı, musiqi və şeiri dinlədikcə qəlbinlə, bütün vücudunla, ruhunla şad olursan. Ana dilimiz qüvvət tapdıqca yeni Füzulilər, Vaqiflər, Vidadilər meydana gələcəkdir. Nərimanov bütün idarələrin, müəssisələrin ana dilində işləmələrini tələb edirdi. O, bədii əsərlərin ana dilinə tərcümə olunaraq xalq arasında yayılmasına çalışırdı. O, ürək ağrısı ilə yazır ki, əhalinin üçdə-iki hissəsi yoxsul və savadsız azərbaycanlıdır. Nərimanov sual verir ki, kimə daha çox savadlanmaq lazımdır? Lazımi qədər savadlı olan rus dillilərə, yoxsa savadsız azərbaycanlılara? Nərimanov yazır: «Biz gərək dövlət vəsaitinin 2/3 hissəsini türklərin (azərbaycanlıların) savadlanmasına və maariflənməsinə xərcləyək, partiyanın diqqətinin 2/3 hissəsini və ümumiyyətlə, bütün energiyamızın 2/3 hissəsini gərək türklərə sərf edək və bu fikrini aşağıdakı sözlərlə bitirir: «Kim ki, Azərbaycanı sevir, onunla ruhən bağlıdır, bütün dünya proletarları birləşin» şüarına sadiqdir, fəaliyyətini məhz belə qursun». O, Azərbaycan dilini sıxışdırmağa çalışan rus şovinistlərinə qarşı çıxış edirdi. Nərimanov Azərbaycan dili dərslərinin saatlarının artırılmasına çalışırdı. Eyni zamanda Azərbaycan dilinin yad ünsürlərdən təmizlənməsi üçün 1923-cü ilin mayında

«Elmləri yeni tamam etmiş müəllimlərə açıq məktubunda» Nərimanov yazır: «Dilimizi lüzumsuz, qeyrisinin dilinin təsiri altına salmaq işimizi təxirə salar. Bu səbəblərə görə dilimizi müstəqil bir şəkilə salmaq üçün ən çox biz müəllimlərə ümid bağlayırıq». Buna görə Nərimanov Azərbaycan dili müəllimi hüququnu almaq istəyənlərdən imtahan qəbul edən komissiyanın üzvü olduğu zaman gənc müəllimlərə böyük qayğı göstərirdi. Məhz bunun nəticəsidir ki, A.Talıbzadə, Ş.Əfəndizadə, M.Hacınski və s. bu kimi maarifpərvər gənclər müəllimlik vəsiqəsini N.Nərimanovun zəmanəti ilə almışlar. N.Nərimanov öz məqalələrində müəllimlərdən hörmətlə danışır və onların nəsihətlərini oxuculara təqdim edərək yazırdı: «Bizə müəllimimiz həmişə söylərdi. Uşaqlar, ciddü cəhd ediniz, ibtidai kəndi dilinizi öyrəniniz, siz ana dilinizi bilməsəniz, millətinizə yavıq olub onun dərdini anlamayacaqsınız. Anlamayan surətdə onun dərdinə əlac edə bilməyəcəksiniz. Əlac etməyən surətdə nəyə lazımsınız? Lazım olmayan surətdə millət deyəcək: «Oxutmaq fəna işdir. Uşaqlarımız oxuyurlar, lakin bundan nə hasil? Öz mənfəəti üçün oxuyub axırda mənim dilimi bəyənməməkdənsə, oxumasa məsləhətdir. Böylə olsa millətimizə xəyanət etmiş olursunuz»[46]. Nərimanov ana dilinə xor baxan «diplomlu» müəllimləri tənqid edirdi.

1906-cı ilin may ayında «Nicat» maarif cəmiyyətinin qiraətxanasındakı yığıncaqda müəllimlərin (avqust ayında) qurultayının çağırılması qərara alınır və aşağıdakı tərkibindən ibarət komissiya təşkil edilir. Həsənbəy Zərdabi (Məlikov), Ə.Ağayev, N.Nərimanov,

[46] M.Məmmədov. Nərimanov və ana dili. B., Klm, 1971, s.46





Ə.Cəfərzadə, A.Əfəndiyev, H.Mahmudbəyov, H.M.Hacıbabayev, M.İ.Əfəndiyev, H.B.Zərdabi «Kaspi», N.Nərimanov «Həyat», Ə.Ağayev «İrşad» qəzetlərinə məktub yazır, qurultayın məqsəd və təkliflərini aydınlaşdırırlar.

Təsis komissiyasının sədri N.Nərimanov var qüvvəsilə çalışır və qurultayın açılmasına az qalmış dərs, təlim və müəllimlər barədə bir neçə məqalə yazır, açılış günü isə «Bu gün» adlı məqaləsini dərc etdirir. 1906-cı il avqust ayının 15-də səhər saat 10-da II şəhər məktəbinin salonunda qurultay işə başlayır. Təsis komissiyasının sədri N.Nərimanov qısa giriş sözü ilə qurultayı açır. H.B.Zərdabi sədr, Nərimanov onun müavini, Fərhad Ağayev isə katib seçilir.

Qurultay Azərbaycanda xalq maarifinin bir sıra mühüm məsələlərini: ibtidai və orta rus-tatar məktəblərində ana dilinin icbari bir fənn kimi təlimi, yeni dərs proqramının tərkibi, vahid dərs metodunun hazırlanması, kənd müəllimlərinin həyat şəraitinin yaxşılaşdırılması, Qori müəllimlər seminariyasının (Azərbaycan şöbəsinin) Azərbaycanın şəhərlərindən birinə köçürülməsi və qadın təhsilinin inkişafı məsələsini müzakirə edirdi.

Qurultayın qocaman müəllimi Səmədbəy Acalov bildirdi ki, Bakıda məktəblər üzrə inspektor işləyən Livitski irqi-ayrıseçkiliyə yol verir, Azərbaycan dilində danışmağı müəllimlərə qadağan edir və onları məcbur edir ki, rus dilində danışsınlar. Bütün bunlara görə qurultay Livitskidən Qafqaz canişininə şikayət teleqramını tərtib etmək üçün H.B.Zərdabiyə tapşırıq verildi. O, teleqramın mətnini oxudu və sonuncu cümlə belə qurtarırdı: «Qurultay ədalətli sərəncam verməniz xahiş

edir!» Nərimanov bu cümləyə etiraz etdi: Qurultay tələb edir! Xahiş yox».

Zərdabi «canişinlikdə oturanları» «tələb» sözü əsəbləşdirə bilər, dedi. Lakin Nərimanovun «qurultay tələb edir» təklifi keçdi. Bu zaman cavan bir müəllim qışqırdı: «Əqil yaşda deyil, başdadır». Göründüyü kimi Nərimanov xalq üçün çalışırdı və onun fikirlərini də xalq qəbul edirdi.

Bildiyimiz kimi, Nərimanovun təşəbbüsü ilə 1906-cı il avqustun 15-də Bakıda Zaqafqaziya müəllimlərinin qurultayı çağırıldı. Bu münasibətlə Nərimanov «Həyat» qəzetində «Müsəlman müəllimlərinin yığıncağı münasibətilə bir neçə söz» adlı məqalə çap etdirir. Bu məqalədə o, qurultayın əsas məqsədini izah edir. Bu qurultayın əsas məqsədi Azərbaycan dilinə verilən dərs *saatlarının miqdarını artırmaq, yeni proqramlar* və bunlara müvafiq dərsliklər tərtib etmək, ibtidai məktəblər üçün lazımı kitablar toplayıb istifadəyə vermək, kənd müəllimlərinin vəziyyəti və s. məsələlər idi. N.Nərimanov yazırdı: «Bu vaxtadək məktəblərin proqramlarını ya İlvitskinin yoldaşları» düzəldirdi, yainki pedaqoqikadan, elm və tərbiyəyei-ətfaldan əsla xəbərləri olmayanlar! Hamı elmlər indidən sonra öz ana dilimizdə oxunacaqdır. Bu məsələlərin hamısını müəllimlər ictimai nəzərdən keçirib yeni proqram düzəldəcəkdir, yeni təlim kitabları seçib çap edəcəkdir. Ümid ediriz həmin bu məclisdə müəllimlərimiz müəllimliyə məxsus qeyrət, hümmət, həmiyyət göstərələr. «Bir neçə adamın vasitəsilə camaatın nəzərində həqir sayılan, iş görməyən «tənbəl» müəllimlərin üstündən ləkəni götürüb, bildirələr ki, bizim milli müəllimlər də qeyri tayfaların müəllimləri kimi camaata yol göstərə bilər. Millətin dərdinə əlac





aramaqda «heç kəsdən» əskik deyillər. Böylə olarsa «yalançı pəhləvanlar» aradan götürülər, millət, camaat özü ikinci ictimai (syezdin) çağırılmağını tələb edər» Burada Nərimanov ikinci qurultayın çağırılmasına işarə edirdi.

Nərimanov yazırdı ki, madam ki, biz fəhlə, kəndli hökuməti qururuq, onda nəyə görə onların balaları öz ana dilində elmə sahib olmasınlar. O, «Teatr barəsində bir neçə söz» adlı məqaləsində yazırdı ki, teatrın əsil məqsədi tərbiyədir. Bundan gələn pula (teatrdan) isə müsəlman uşaqları üçün bir məktəb binası tikmək olar. Heç bir millət qılınc və tüfəng gücünə qabağa getməyibdir. Hansı millət ki, qabağa gedib, tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur»[47].

Nərimanov yazırdı ki, uşaqlarımıza biz özümüz gərək elə tərbiyə verək ki, onlar gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar.

N.Nərimanov «İranın əhvali-hazirəsi» məqaləsində yazırdı: «Təklikdə insan insandan tərbiyə alan kimi, millət də millətdən tərbiyə alır. Ümumi tərəqqi – insan, tərəqqi – millət belə bir yol ilə gedir». Daha sonra yazır: «Marksın millət millətdən dərs gərəkdir alsın» sözləri bunu təsdiq edir[48].

N.Nərimanov teatrı, komediyanı ən mühüm tərbiyə vasitələrindən biri hesab edirdi. Nərimanov yazırdı: «Bu axır vaxtda komediya çıxartmaqdan əsil məqsəd tərbiyədir. İnsan çox vaxt öz zindan qanlığında özünün və ya qeyri-şəxsin qüsuratını görmür və yainki hiss

[47] N.Nərimanov. Məqalələr və nitqlər. B., Azərnəşr, II cilddə, cild 1, 1971, s.33

[48] N.Nərimanov. Məqalələr və nitqlər. I cild. B., Azərnəşr, 1971, s.78

etmir»[49]. Nərimanov göstərir ki, komediya müsəlman qardaşlarımızın iç üzünü açır. Onlar öz qüsurlarını görür və çalışırlar ki, özlərini yaxşı adamdara oxşatsınlar, pis adamlardan kənar olsunlar.

O, məktəblərin açılmasını, müsəlman balalarının oxuyub təhsil almaları üçün çalışırdı. Nərimanov yazırdı: «Məktəb! Məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər![50]»

«Kömək ediniz» sərlövhəsində («İrşad» qəzeti №82, 5 aprel 1906) Nərimanov yazır ki, razı olmayanız biçarə şagid bir qarın çörəkdən ötrü oxumağı buraxıb özgə işlə məşğul olsun. Onsuz da oxuyanlarımız azdır! Kömək edin». Xalq üçün çalışan, bütün həyatını onun maariflənməsi, tərbiyəsi yolunda qurban verən Nərimanov öz əqidəsindən bir an belə geri çəkilmirdi. «Nər» imzası ilə yazılarını çap etdirən Nərimanov xalq yolunda bütün əziyyətlərə dözürdü.

N.Nərimanov «Hümmət» qəzeti 1918-ci il 10 yanvar №26-də çap etdirdiyi «Nə etməliyik» məqaləsində yazır ki, heç kəs anadan olanda padşah və ya kəndçi yaranmır, insan yaranır. Hər kəs işləyir, zəhmət çəkir özünə azuqə toplayır. İnsan düz olmalı, oğurluq etməməli, öz vicdanını pula satmamalıdır.

Nərimanov bu məqaləsində çox böyük tərbiyəvi məsələlərə toxunmuşdur. O, insanlar arasında ziddiyyət salıb, onları bir-birilə vuruşduran, onların əxlaqlarını pozub heyvan dərəcəsinə gətirən, millətin balalarını ayaqyalın, başıaçıq, sərkərdan çöllərə salan, elmdən. savaddan məhrum edən, haqq yolundan azdıran insanlıq simasını itirənlərə qarşı çıxırdı.

---

[49] Yenə orada, s.32

[50] Yenə orada, s.34





Ac-yalavac gəzən, yoxsulluq içində yaşayan, dəva-dərmansız, xəstəlikdən şam kimi əriyən, küçələrdə yuxulayanları gördükdə böyük ədibi dərd-sər bürüyürdü. Xalqın, millətin məşəqqətli həyatı onu kədərləndirirdi.

Nərimanov yazır: «Hamı insan yaranıbdır. Nə üçün bu insanlardan biri pulun gücü ilə elm, fənn oxusun, sənət öyrənsin, digəri bunlardan məhrum qalsın».[51] Nərimanov çalışırdı ki, fəhlə, kəndli uşaqları elm, təhsil dalınca getsinlər, nadanlıq dəryasında boğulub qalmasınlar. Nə üçün elmsiz, fəhmsiz, ağıldan kəm, tərbiyə cəhətincə əxlaqdan pozğun sərmayədar uşaqlarına pulun gücü ilə tərbiyə verdirə bilsin; fəhlə, zəhmətkeş, nəinki tərbiyə, hətta sevgili balalarına həsrət qalsın. Cəmiyyətin bu sosial bəlası böyük, yazıçı, dramaturq, filosofu düşündürür və o çıxış yolunu inqilabi mübarizədə görürdü. O, elə qanunlar tərtib etmək istəyirdi ki, hamının hüquqları bu qanun qarşısında bərabər olsun.

Bolşeviklərə ürəkdən bağlanan Nərimanovun faciəsi o idi ki, o, bolşeviklərin Azərbaycanda «bərabərlik» adı altında qurduğu dövlətin, xalqın başına gətirdikləri dəhşətli, qanlı cinayətləri görmürdü. Sonralar öz səhvlərini başa düşsə də artıq gec idi. Bolşeviklərin «bütün millətlər qardaşdırlar» şüarı minlərlə azərbaycanlının qanı bahasına həyata keçirilirdi. Onların xalqa bəxş etdikləri «azadlıq» minlərlə azərinin bədbəxtliyinə səbəb oldu. Artıq Nərimanov meydanda tək idi. «Sapı özümüzdən olan baltalılar» (Ə.Qarayev, R.Axundov və b.) Nərimanovun əleyhinə çıxmışdılar.

Nərimanov Azərbaycan dilində qəzetlərin nəşrini və Rusiya müsəlmanlarına aid olan cari məsələlərin həmin

---

[51] Yenə orada, s.164

qəzetdə müzakirə olunmasını bildirirdi. O zaman cəmiyyətinə öz ana dilində qəzet oxuyub ondan tələb olunan şeyləri və nə də geri qaldığını bilməyə imkanı olardı. Lakin nə qədər ki, belə bir qəzet yoxdur, oxumuş müsəlmanlar, qızıl vaxtlarını müsəlmanların anlamadığı dildə faydasız məqalələr yazmağa sərf etmək əvəzinə, bu və ya digər məsələlər haqqında sadə Azərbaycan dilində kitabçalar nəşr etsələr, rus dilini öyrənməyin faydası haqqında yazsalar, daha ağıllı işlər görmüş olardılar. Göründüyü kimi Nərimanov müsəlmanların savadlı olmasını və bu mənada yazarların sadə, asan dildə yazmalarını istəyirdi.

Nərimanov «Bəzi yoldaşlara cavab» adlı məqaləsində Azərbaycan, rus və eləcə də dünya ədəbiyyatı klassiklərinin öyrənilməsindən, Azərbaycan dilində teatr tamaşalarının müntəzəm olaraq verilməsindən, Azərbaycanda qadın artistlərin hazırlanmasından və s. mədəni işlərin həyata keçirilməsindən danışır.

Nərimanovun yaradıcılığını diqqətlə öyrənərkən görürük ki, o, ömrünün sonunadək xalq üçün – Azərbaycan xalqı üçün, onun azadlığı, adə-ənənələrini, dilini yad ünsürlərdən qorunmaq üçün çalışmışdır. Heç təsadüfi deyildir ki, «Oğluna bitməmiş məktubu»nda biz bunun şahidi oluruq. O, yazır: «Mən 1925-ci ilədək başqaları üçün yaşamışam. Bəs sonra? Sonra belə də davam edəcək».[52]

Həqiqətən də bu belə idi. Belə ki, 1924-cü ildə Moskvadan respublikamıza göndərdiyi «Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktubu»nda gənc nəslin tərbiyəsində müəllimlərin böyük rol oynadığından bəhs

[52] Ucqarlarda inqilabımızın tarixi. Oğluna bitməmiş məktubu. M., 28 yanvar 1925-ci il, s.69





edərək yazmışdır: «Biz iddiamızdan əl çəkməyirik: Azərbaycan Şərq üçün bir məktəbdir, yəni Şərq hazırkı halında qalırsa, biz ona hər cəhətdən müəllim olacağıq. Beş ildən sonra Türkiyə, İran, Əfqan üçün bizim müəllimlərimiz elm-fənn meydanında hazır olacaqlar. Ona binəan dilimizi lüzumsuz, qeyrisinin lisanının təsiri altında saxlamaq bütün işimizi təxirə salar. Bu səbəblərə görə dilimizi müstəqil bir şəkilə salmaq üçün ən çox sız müəllimlərə ümid bağlayıb, məktəbi bitirməyinizi yenə də səmimi qəlbdən təbrik edirəm»[53]. Nərimanov bu məktubunda müəllimlərimizə dilimizin saflığı uğrunda, sağlam, yetkin, dəyanətli uşaqların tərbiyə edilməsini tövsiyə edirdi. Nərimanov bir qarın çörəkdən ötrü, oxumağı tərk edən şagirdlərə kömək etməyi müsəlman qardaşlardan təvəqqe edirdi. O, ömrünün sonunadək müsəlman uşaqlarının taleyini düşünür, onların elm, savad almalarına çalışırdı. Nərimanovu millətin aqibəti, gələcəyi düşündürürdü və yazırdı ki, görəsən ayaqyalın ac-susuz, aclıqdan müxtəlif növ xəstəliklər tapmış balalar, həbsxanadakı günahsız məhbuslar bürokrat «əfəndilərimizi» nə vaxtsa əfv edəcəklərmi? Qanun hamı üçün eyni olmalıdır. İstər kasıb, istərsə də varlılar qanun qarşısında cavabdehdirlər. Nərimanov həbsxanada vətən yolunda, xalq yolunda canlarından keçən balaların əfv olunmasını tələb edirdi. O, deyirdi ki, onların qazamatlarda çürümələri bizim ruhumuza, əqlimizə rahatlıq verməyəcəkdir. Millətin qanını su yerinə axıdıb, azadə gəzənləri cəzalandırmaq lazımdır.

Millətin halı nə yaman olmuş,

[53] N.Nərimanov. «Ucqarlarda inqilağımızın tarixinə dair». B., Azərnəşr, 1992, s.65

Hamının qəlbi qəmilə dolmuş,
Bir belə cəhalət olmaz, olmaz, olmaz,
Bir belə səfalət olmaz, olmaz, olmaz...

Əlibəy Hüseynzadənin yazdığı bu şeir, sanki Nərimanovun ürəyindən keçənlərdən xəbər verirdi. Belə ki, qeyri-millətlərə qarşı azuqə məsələlərində ona dair düzəldilən qanunların qeyri-səmimiliyi özünü büruzə verirdi. Nərimanov yazırdı ki, Qafqazda və daxili quberniyalarda millət millətin qanını su yerinə axıdır. Söz, mətbuat azadlığına dair qanunlar gərək çoxdan veriləydi. Bu Nərimanovun fikirləri idi.

Məsələn, əsirlərlə əlaqədar Nərimanov məsələ qaldırır ki, Nargin adasındakı necə min alman, türk və Avstriya əsiri aclıqdan – susuzluqdan qırılırdı. Əsirləri yoxlamaq üçün komissiya təşkil edilir və sədr Nərimanov seçilir. Altı nəfərlik bir heyətlə Nərimanov Nargina yola düşür. Burada o, əsirlərin vəziyyətinin çox pis halda olduğunu aydınlaşdırır. Şəhərə qayıdandan sonra Bakı sovetində çıxış edərək əsirlərin vəziyyətinin ağır olduğunu söyləyir və onlara təcili yardım göstərməyi təklif edir. Daşnak partiyasının üzvlərindən başqa hamı bu təklifi bəyənir. Nərimanovun sədrliyi altında yardım komitəsi yaradılır və xəstə əsirləri şəhərə daşıyırlar. Onları sağaldıqdan sonra Nargina deyil, Zığdakı pivə zavoduna qaytarırdılar. Bu kiçik epizaodla Nərimanovun insanpərvərliyinin şahidi oluruq.

Nərimanov 1918-ci ildə əhalini sakitləşdirmək üçün «Təzəpir» məscidinə gedir və adamlardan alınan silahların geri qaytarılması barədə qərarı bildirir. O, deyir ki, səbr edin, fitnə-fəsada uymayın. Sizin silahınız yox, topunuz yox, heç gülləni də ata bilmirsiniz. Səbr edin. Mən iyirmi yeddi tüfəngi alıb gətirəcəyəm. Göründüyü





kimi Nərimanov həmişə xalqla olmuş, həm həkim kimi onlara köməklik götərmiş, müalicə etmiş, həm də görkəmli bir dövlət xadimi kimi onların təhlükəsizliyini qorumağa çalışmışdır. Nərimanov əhalinin ərzaqla təmin edilməsində də əlindən gələn köməyi əsirgəmirdi. Onu da qeyd etmək lazımdır ki, N.Nərimanov tək idi. Bakı və demək olar ki, bütün Azərbaycanı qaniçən S.Şaumyan, Mikoyan və digər erməni yanları, rus gürcülər idarə edirdi. Bununla da biz görürük ki, Nərimanov nə qədər çətin bir şəraitdə işləməli olurdu. Erməni daşnaklar Bakını mühasirəyə almışdılar. Onlar bütün Qafqazı, Aralıq dənizi, üstəlik Şimaldan Voronej şəhərini də işğal etməyi qarşılarına qoymuşdular. Bakının bu ağır günlərində Nərimanov xalqdan ayrılmır, mübarizəni davam etdirir. «Ədil çayı» məqaləsində (1912-ci il) yenə də müəllif bir tərəfdən amansız müharibələri, insanların ac-yalavac yaşamalarını, qanlı göz yaşlarını, quru yerdə zar-zar edib canverənləri təsvir edirsə, digər tərəfdə qaz əti ilə plov yeyib qu balışı üstə istrahət edənləri, millət naminə işləyib milləti satanları ürək ağrısı ilə verir. Digər məqaləsində isə (möhtərəm Yusif Vəzirovun suallarına cavab» 1913-cü id) çarşavın tibbi nöqteyi-nəzərilə zərərindən danışır. Belə ki, çarşav günü buraxmır, yəni günün şəfəqinə mane olur. Günün şəfəqi bir çox mikrobların ölməyinə səbəb olan kimi bir çoxunu da hərəkətdən salır; yəni həmin mikroblar günün şəfəqində artmırlar, zəif olurlar. Nərimanov «Tibb və islam» kitabının 31-ci səhifəsində bu haqda məlumat vermişdir. Belə ki, burada deyilir ki, çexotka xəstəliklərinin müalicəsində günün şəfəqi böyük rol oynayır. Bundan başqa Nərimanov müsəlman qızlarının on-on iki yaşlarında ərə getmələrini böyük xəta hesab edir. Bu

yaşda ərə gedən qızların hələ sümükləri hələ tam bərkiməmişdir. Nərimanov millətin halına acıyaraq yazır ki, gələcəkdə ana olacaq bu, qızlar pis xəstəliklərə düçar ola bilərlər. Qeyd etmək lazımdır ki, Nərimanov millətinin taleyinə biganə qalmamış, ömrünün sonunadək onun yüksəlişinə çalışmış, səadəti yolunda həyatını qurban vermişdir.

Nərimanov «Müsəlman-erməni kasıb-fəqirlərinə bir neçə söz» məqaləsində erməni və müsəlman kasıblarını bir-birilə qızışdırıb vuruşduran, yurd-yuvalarını dağıdanları tənqid edərək, burada üçüncü qüvvənin olduğunu göstərmişdir. Nərimanov yazır ki, qoyun olub ixtiyarınızı qurdlara tapşırmayınız! Onlar pul ilə, siz can ilə meydana gəlirsiniz. Onlar olandan verib, axırda yenə də dolanacaqlarını eyş-işrət ilə keçirirlər. Siz bədbxətlər canınızı puç bir əqidənin yolunda qurban edib, millətin aclarını, əlsiz-ayaqsızlarını artırırsınız. Göründüyü kimi Nərimanov millətlər arasında qırğın törədənləri lənətləyir və hökumətdən bunun qarşısını almaq üçün tədbirlər görməyi tələb edirdi.

Nərimanov bütün millətləri – rus, erməni, gürcünü bir təşkilatda «Hümmət» təşkilatının bayrağı altında birləşməyə çağırırdı və göstərirdi ki, hər millət öz yolu ilə getməlidir, çünki bu təbiidir. O, bütün millətləri qardaşlığa çağırırdı. Biz onu burada suçlamamalıyıq. Çünki bunu Nərimanovdan dövr, zaman tələb edirdi. Lakin o, erməni daşnakların zəhərli bir ilan olaraq onu çalmağa hər an hazır olduğunu büruzə vermirdi. Nərimanov Qafqazda yaranmış milli komitələrin şovinist təşkilatı olduğunu bildirərək yazırdı ki, bu komitələr millətləri bir-birinə vurdurmaqla məşğuldurlar. Onlar qara camaatı soyan çinovniklərin tərəfdarıdırlar. Ona





görə də milli təşkilatlar dağılmalı və yerlərində demokratlardan ibarət təşkilat düzəldilməlidir. Nərimanov gecələr yorğana bürünmüş quru yerdə dükanlar qabağında növbələrdə yatanları; gündüzlər uşaqlarını evdə sahibsiz qoyub, üç-dörd girvəngə kartof üçün yüz, iki yüz günlərlə növbədə duran qadınların halına acıyırdı. O, yazırdı ki, belə ailələrdən çıxan uşaqlardan nə gözləyə bilərik. Məktəbə, sənətə yaramayan bu zavallı millət balaları camaatın hansı işinə yarayacaqlar? (El həyatının səadəti eldən asılıdır, 1918-ci il). Nərimanov müsəlmanların məşəqqətli həyatlarını təsvir edərək yazır ki, müsəlman kəndləri olan yerlərdə rus soldatlarının vaqonlarını axtarıb tüfənglərini alırlar. Tüfəng alanların sırasında Diki diviziyadan başqa, erməni və gürcü soldatları da vardır. Mahal müsəlman mahalıdır. İxtişaş düşəndə də müsəlmanlar zərər çəkirlər. Nə üçün bunu Tiflisdə törətmirlər? Onlar istəyirlər ki, tökülən göz yaşları müsəlmanların olsun. Göründüyü kimi o zamankı Zaqafqaziya hökuməti vaxtsız və yersiz qanunlar ilə Zaqafqaziyada yaşayan millətləri birləşdirməkdənsə, milli məsələləri araya atıb, bu millətləri bir-birindən nəinki ayırır və hətta gələcəkdə baş verən qanlı faciələrə yol açır.

Nərimanovun əsərlərindən, ictimai-siyasi fəaliyyətindən aydın görünür ki, o, təkcə kommunist olaraq «bolşevizm» ideyasına tam mənasında aludə olmadı, öz xalqının milli maraqları naminə, inqilabı qəbul edərək onu «qanlı sinfi mübarizədə deyil, milli barışıqda gördü, işdə ateist olsa da, yəni ateist bir dövlətdə yaşasa da, islam dininə sadiq qaldı. Milli və dini adət-ənənələrimizin qorunub saxlanmasına yardımçı oldu. O, xalqları Rusiya ilə dostluğa çağırırdı, lakin

Rusiyaya tabe olmaqdan boyun qaçırdı, dünya proletarlarına yardım əlini uzatmağa hazır idi, amma xalqın neftinə olan hüququndan əl çəkmək fikrində deyildi. «Sovet xalqının birliyini» təbliğ edir, amma ermənilərin antiazərbaycan siyasətində barışmaz bir mövqe tuturdu. Məhz bütün bunlara görə o daim düşmənlər tərəfindən təqib olunurdu. O, bolşeviklərin müsəlman kəndlərini, varlıların evlərini dağıtmalarının əleyhinə idi. Məsələn, milyonçu Z.Tağıyevin evini müsadirə edərkən (bolşeviklər) Nərimanov onun Mərdəkandakı evinə toxunmamağı göstərmiş və Hacı oraya köçürülmüşdü.

Bundan əvvəl yuxarıda, biz qeyd etdik ki, Nərimanov islam adət-ənənələrinə, ümumiyyətlə islama pis baxmırdı. O, Şərq xalqlarına kommunizm ideyalarını təbliğ etməklə yanaşı islamı kommunizmlə birləşdirmək istəyirdi. Bu o vaxtlar idi ki, dini mərkəzlər dağılır, dindarlar sürgün olunurdu. Görkəmli yazıçımız M.S.Ordubadi 1920-ci ildə öz xatirələrində yazırdı: «Dünyada bir əqidənin hakim olması milliyyətin orijinallığını itirmək deməkdir. Çünki əqidənin milli adət və milli mədəniyyət üzərində böyük təsiri ola bilər». Məhz Nərimanov belə mədəniyyəti, adəti hər şeydən üstün tuturdu. M.S.Ordubadi yazırdı: «Nəriman sosializmi və kommunizmi sinfi mübarizə yolları ilə deyil, barışdırıcılıq yolları ilə getməyi tövsiyyə edirdi»[54]. Həqiqətən də biz Nərimanovun bu ideyasını «Nadanlıq» dramında irəli sürdüyünü görürük. Ancaq Nərimanov Şərq kommunizmi deyilən ideologiyanı yerində bilməmişdir. Çünki bolşevizmin hər şeyi yenidən başlamaq fikri

[54] Qurbanov Ş. Ömrünün son illəri. B., Azərnəşr, 2003, s.93





Nərimanovun əleyhinə idi. Nərimanov oğlu Nəcəfə yazdığı məktubda göstərir ki, mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın: dünyada köləliyin məhvini həyata keçməsini görürdüm. Lakin bolşeviklərin törətdikləri hadisələr sonrakı illərdə özünü doğrultmadı. Məhz buna görə də Nərimanovun onlara inamı azalmışdı. Nərimanovun yazdığı kimi Lenindən sonra onun «qanuni varisləri» adlandıranların dövləti idarə etməyi bacarmamaları nəticəsində əmələ gəlmiş böyük nöqsanlarımız barədə kommunistlər öz aralarında da danışa bilmirlər. Bunu Nərimanovun «Ucqarlarda inqilabımızın tarixinə dair» əsərindən də görmək olar. Nərimanov yazırdı: «Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, Azərbaycan vətəndaşı Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə müstəmləkəçilikdə ittiham və s. eşitməyə məcbur olursan»[55]. Məhz buna görə də Nərimanovu millətçi adlandırır, onu ləkələməyə çalışırdılar. Nərimanov yazırdı: «Azərbaycanda kəndlilərin cəhalət bataqlığında boğulması onların əsla vecinə deyil. Bəs MİK-in sədri Ağamalıoğlu, Xalq Komissarları Sovetinin sədri Musabəyov kimi işçilər nə iş görürlər. Bəli, bu bədbəxtlər bu vəzifələrə irəli ona görə çəkilmişlər ki, sussunlar». Həqiqətən Mirzəyanların sözünü deyən belə satqınlar öz xalqının qəniminə çevrilmişdilər. Bax, bu idi Nərimanovu əsəbləşdirən. Xalqın taleyüklü məsələləri onların əlində idi.

[55] N.Nərimanov. «Ucqarlarda inqilabımızın tarixinə dair». B., Azərnəşr, 1952, s.38

Bakı neftinə sahib olan, onu özü bildiyi kimi idarə edən Serebrovski («Azneft» idarəsinin rəisliyndən sonra 1926-30-cu illərdə «Baş qızıl» idarəsinin rəisi olmuşdur) özünü Azərbaycanda Nərimanovun yazdığı «Kral» kimi aparırdı. O, indiyə qədər də bilirdi ki, azərbaycanlıları aypara və ulduzla aldadır. Nərimanovun göstərdiyi kimi «Sovet Azərbaycan\nını tanımaq istəməyən» Serebrovski həqiqətən ilk gündən özünü azər neft sənayesinin tacsız kralı kimi aparır, respublikanın yuxarı dairələri ilə hesablaşmır, özbaşınalıq edirdi. Ümumiyyətlə, rəhbər vəzifələrdə erməni, rus və yəhudilərin işləməsi. Azərbaycan ziyalılarının isə alver etməsi Nərimanovu narahat edirdi. Hər yerdə, Moskvadan gələn «yekəbaş çinovniklər» hökmranlıq edirdilər. Məsələn, 1921-ci il mayın 6-19-da keçirilmiş I Ümumazərbaycan Sovetlər qurultayında Nərimanova müraciəi edərək soruşurdular ki, bir halda Azərbaycan müstəqil respublikadırsa, onda nəyə görə Rusiya onun daxili işinə istədiyi kimi qarışır? Azərbaycan öz neftinin sahibi deyil və ondan istədiyi kimi istifadə edə bilmir? Məgər bu 70 il belə olmamışdırmı? Azərbaycan nefti ilə müharibə illərində qalib gələn Rusiya deyildimi? Qeyd etmək lazımdır ki, 70 ildən də çox müddət ərzində Rusiya Azərbaycan nefti ilə dolanmışdır. Azərbaycanlılara isə çıxarılan neftin cüzi hissəsi çatırdı. Nərimanovun yazdığı kimi onlar siyasəti elə aparırdılar ki, millət özünü tanımayıb puç olsun. Azərbaycan yağlı bir tikə kimi Rusiyanın əlində idi. Necə istəyirdi, o cürə də idarə edirdi. Ş.Qurbanov «N.Nərimanovun ömrünün son illəri» kitabında yazır: «Serebrovski İstanbul səfərindən qayıdandan sonra orada gördüyü işlər barəsində Orconikidzeyə teleqram göndərmişdir. Orconikidze də teleqramı Leninə vermiş.





Lenin bundan çox qəzəblənmiş və Serebrovskiyə yazmışdı? «Sizin Serqoya göndərdiyiniz boşboğazlıqlarla dolu teleqramı oxudum. Qısaca məlumat verir. Bakı fəhlələri üçün dəqiq nə qədər paltar və çörək gətirmisiniz? Fəhlələrin sayı hələ az ikən onların paltar və cörəklə təmin edilmədiyi halda, fəhlələrin sayını çoxaltmaq mənasızdır». Göründüyü kimi, Lenin Bakı fəhlələrinə qarşə qərəzli mövqedən yanaşmış və onların azalmasına çalışmışdır. Deməli, Lenininin özü beynəlmiləlçi yox, qatı şovinist olmuşdur. Bu zaman Sovet hökuməti, Azərbaycandakı milli meyllərlə yalnız ədəbiyyat və maarif sahəsində mübarizə aparmır, eyni zamanda ictimai-siyasi sahədə mübarizə aparır. Azərbaycan Kommunist Partiyasının tarixi partiya sıralarının «milli sapıntıçılıq»dan təmizlənməsi tarixidir. Milli sapıntıçılıq isə yerli kommunistlərin partiya ilə sovet idarələrini Moskvanın hədsiz müdaxiləsindən qorumaq istəyən hərəkətlərinə deyilir.

«Sapıntıçılıq» – doğru yoldan sapmaq deməkdir. O, zamanlar Kommunizmin əsas əqidələri ilə razı olmayanlara və partiya intizamına riayət etməyənlərə bu adı verirlər.

Rus olmayan Sovet respublikalarında milli istiqlal fikrinə meyl edənlərə «milli sapıntıçılar» adı verilir. 1924-cü ildə Azərbaycan Kommunist Partiyasının baş katibi Ə.Xanbudaqov Azərbaycan sapıntıçılarına başçılıq edir. Bu həmin Xanbudaqovdur ki, vaxtı ilə N.Nərimanovun milli məsələlərə dair fikirlərinin tam əlehdarı idi. O, ermənilərlə birləşib Nərimanovu Bakıdan uzaqlaşdırmağa çalışırdı. Biz yuxarıda bu haqda söhbət açmışdıq. Bu həmin Xanbudaqovdur ki, onun təmsil etdiyi cərəyanın istəkləri, Nərimanovun apardığı

mübarizə ilə eynilik təşkil edirdi. Sapıntıçıların planları aşağıdakılar idi: 1) Moskva Azərbaycanın daxili işlərinə bundan sonra qarışmayacaq; 2) Yerli kommunistləri sadəcə yuxarıdan təyin olunan katiblərlə rəhbərlərin idarəsində və yalnız onların müşavirələri rolunda görmək fikri və adətindən vaz keçiləcək; 3) Azərbaycan milləti öz-özünə idarə etmək çağına çatmış ikən, moskvalı idarəçilər, yerlilərin müstəqil olaraq çalışmalarına əngəl olur və bu çalışmaya «yerli millətçilik» damğası vurulur. Buna qəti olaraq son qoyulacaq; 4) İşçi birlikləri, kooperativləri və digər dövlət müəssisələri, sözdə deyil, gerçəkdən türkləşdiriləcək; 5) Azərbaycanı Rusiyadan gətirilmiş köçkünlərlə məskun etmək istəyən Sovet hökumətinin məskunlaşdırma siyasətinə son qoyulacaq: 6) Cənubi Qafqaz respublikalarında milli mədəniyyətlərin inkişafını saxlamaq üçün Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federasiyasının təşkilati əsası ilə qanunu dəyişəcək. (Həmin tarixdə adı çəkilən federasiya var idi.) Bu federasiya sonradan dağıldı[56].

Xanbudaqovun bu planları Moskvanın zorakı tədbirləri ilə nəticələndi. Xanbudaqovu Azərbaycandan sürgün etdilər. Sonralar o deyirdi: «Kaş doktor sağ olaydı»: Göründüyü kimi o vaxtilə Nərimanovun əleyhinə olmasının əzabını çəkirdi.

1929-cu ildə «Pravda» qəzetində bolşevik partiyası müfəttişlərindən biri olan Yaroslavski «Azərbaycan Kommunist Partiyasının faciəli iflası» məqaləsində yazırdı: «Bakı Azərbaycanın paytaxtıdır. Azərbaycan – bü bütün müsəlman Şərqinin inqilabı mərkəzidir. Bakı pantürkizmi ilə panislamizm ideyalarına qarşı savaşan

[56] M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Nərimanov tarixi. B., Gənclik, 1990, s.95





internasionalizm qalasıdır. Buna görə kommunizmin Bakıdakı faciəli aqibəti haqqında yazı yazmaq acıdır. Bir Bakı ki, arxasında işçi hərəkatının on illərcə sürən böyük bir tarixi vardır, Bir Bakı ki, böyüklüyü etibarilə Sovet İttifaqının üçüncü şəhəri sayılır. Sovet neftinin 70%-ni Azərbaycan verir. İmperializmin gözü Azərbaycandadır. Müsavatçılar gecəli-gündüzlü Azərbaycan xalqının etimadını qazanmağa çalışırlar. İşçi partiyasının gücü bu ünsürlərə qarşı mübarizə aparmaqdadır. Buna görə də Bakı haqqında pis şey yazmaq çox ağır və kədərlidir». Bəli, biz internasional bir dövlət olduğumuza görə erməniləri ərazimizdə yerləşdirdik və nəticədə bizim torpaqlarımız hesabına (XX əsrdə) Ermənistan Respublikası yarandı. İndi isə bunun əzabını çəkirik.

Biz yuxarıda sapıntıçılar haqqında danışdıq və bildirdik ki, N.Nərimanov öz alovlu çıxışları ilə onları təmsil edirdi. «Sapıntıçı» kommunistlərə qarşı terror aktı başlanarkən ilk hədəf nöqtəsi Nərimanov oldu, yəni «milli sapıntıçı xainlərin hamisi kimi ifşa edildi. Nərimanovun milli məsələlərlə bağlı yeritdiyi siyasət onun məhvinə səbəb oldu». «Məni anlayan yoxdur» – deyirdi. Azərbaycan xalqına, onun ziyalılarına, ümumiyyətlə, xalqın milli müdafiəsinə qalxmış hər bir kəs Qızıl Ordunun zabitləri tərəfindən güllələnməyə məruz qalırdı. Görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə yazır: «Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi. ÇK məmurunun füzulluğu o dərəcəyə bulmuşdu ki, Azərbaycan komissarları rəisi bulunan N.Nərimanovun kəndlisini belə tövqif eyləmişlərdi»[57]. Göründüyü kimi Sovet hökumətinin

[57] M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. B., Elm, 1990, s.71-72

Azərbaycan xalqına qarşı milli siyasəti çox ağır nəticələrə gətirdi.

Bütün bu təhdidlərə baxmayaraq, Nərimanov milli məsələdə öz siyasətindən əl çəkmədi. Artıq Azərbaycanda türkçülük o qədər geniş yayılmağa başlamışdır ki, Nərimanov qəzetlərdə bu barədə geniş həcmli məqalələr yazmağa başlamışdır. Türkçülük, türk dilinin geniş yayılmasının təşəbbüskarı olan Nərimanov Bakıda çıxan rusca «Bakinski raboçi» və və türkçə «Kommunist» qəzetlərində nəşr etdiyi məqaləsində yazırdı ki, Azərbaycan əmələ və köylüsü bəzi mülahizat ilə siyasi haqqından, təmamiyyəti-mülkiyyəsindən, iqtisadi faydasından keçə biliyor, fəqət, öz ana lisanından kimsəyə fədakarlıq yapmaz». Göründüyü kimi Nərimanov ana dilinin həyata keçirilməsində heç bir güzəştə getmir. Nərimanov yazırdı: «Mən millətimi sevirəm, çünki anamı sevirəm». Anasını sevməyən adam millətini sevə bilməz. Bunu biz Nərimanovun ömür boyu xalq, vətən uğrunda apardığı mübarizəsində görürük. Fikir, vicdan azadlığı Nərimanovun əsərlərində də, şəxsi həyatında da birinci yerdə dururdu.

Nərimanov deyirdi: «Dünyada bir əqidənin hakim olması milliyyətin orijinallığını itirmək deməkdir. Çünki, əqidənin milli adət və milli mədəniyyət üzərində böyük təsiri ola bilər».

Bəli, Nərimanov öz əqidəsinə sadiq qalaraq, ömrünün sonuna kimi millətini, xalqını sevmiş, ona sədaqətlə qulluq etmişdir. Bunu onun Türk xalqının xilaskarı M.K.Atatürklə olan münasibətlərindən görmək olar. Belə ki, Hüseyn Adıgözəlin «Atatürk Nərimanov və Kurtuluş Savaşımız» adlı kitabın «Nərimanov, Atatürk və Qurtuluş savaşımız» adlı bölməsində Nərimanovun Türkiyə xalqına göstərdiyi yardımdan bəhs edir. Atatürk Nərimanovla 1920-ci ildə





əlaqə yaratmış və ondan Türkiyənin Qurtuluş müharibəsinə yardım istəmişdir. Azərbaycanın özündə vəziyyətin yaxşı olmadığına baxmayaraq, Nərimanov Türkiyəyə 500 kq. qızıl göndərmiş və bir məktub yazmışdı: «Paşa, türk türkə, qardaş qardaşa borc verməz. Qardaş-qardaşının əlindən tutar, kömək göstərər»[58].

Türkiyədə illər boyu belə bir səhv fikir söylənilirdi ki, guya bu kömək ruslar tərəfindən göstərilmişdir. Sonralar məlum olmuşdur ki, 1920-ci ildə Türkiyəyə qızılı ruslar yox, azərbaycanlılar göndərib. Göründüyü kimi Nərimanov türk xalqına dərin hörmət bəsləmiş və bunu əsərlərində də görürük. Heç təsadüfi deyildir ki, Nərimanov bütün çıxışlarında, əsərlərində, məqalələrində türk millətinin adını çəkir. Azərbaycanda ana dilinin türk dili olmasını istəyir və bu sahədə əlindən gələni əsirgəmir. Eyni zamanda Nərimanov Qərbin imperialist dövlətləri ilə Türkiyənin bölünməsi və boğazların zəbti haqqında bağladıqları müqaviləyə də öz münasibətini bildirmişdir. Belə ki, 1921-ci il fevralın 19-da Nərimanov Leninə yazırdı: «Mən sizi xəbərdar etməliyəm ki, yoldaş Çiçerin Şərq məsələsini qarışdırır, o, erməni məsələsinə həddindən artıq aludədir və Ankara ilə əlaqələrimiz məhz erməni məsələsi üzündən kəsilsə, nələrin baş verə biləcəyini bilmirəm. Mən ciddiliklə bəyan edirəm ki, əgər biz Azərbaycanı nəzərimizdə saxlamaq istəyiriksə, onda nəyin bahasına olursa-olsun Ankara ilə möhkəm ittifaq qurmalıyıq»[59].

Məhz Nərimanovun diplomatik siyasəti sayəsində Türkiyə Rusiyadan böyük maliyyə dəstəyi və hərbi dəstək

58 H.Adıgözəl. Nərimanovu Türkiyəyə tanıtmaq istəyir. «Respublika» qəz., 2004, 1 dekabr, s.3

59 «Azərbaycan» qəzeti, 2005, 6 mart

almaqla yanaşı, Qərbi Anadoluda yerləşən geniş əraziləri geri qaytardı, Zaqafqaziyada öz nüfuzunu təsir mexanizmlərini qoruya bildi. 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsinə görə vaxtilə Rusiya imperiyasının işğal etdiyi Qars Ərdəhan, Artvin, Kağızman, Oltin dairələri və eləcə də Batum dairəsinin və Sürməli uyezdinin Cənub hissələri Türkiyənin tərkibinə keçdi. Beləliklə, rusların zəbt etdikləri 23 min kvadrat kilometr sahə Türkiyəyə qaytarıldı. Naxçıvan isə Muxtar vilayət şəklində Azərbaycanın tərkibində qaldı. Erməni daşnakların «Böyük Ermənistan» dövləti yaratmaq cəhdləri boşa çıxdı. Lakin təəssüflər olsun ki, 70 ildən sonra Qarabağ torpaqları ermənilər tərəfindən işğal edildi.





## NƏTİCƏ

Nərimanov millətini, xalqını dərin məhəbbətlə sevirdi. O, vaxtkı Müsavat Partiya rəhbərlərindən biri olmuş M.Məmmədzadənin fikrincə, «Nərimanov millətçidir. Hər halda nəzəriyyəsi kommunizmə müvafiq deyildir». N.Nərimanov kommunistliyini «çox tez-tez unudur və özünün milli türk simasını açıq nümayiş etdirirdi[60]. Nərimanovun milli mənafeyi hər şeydən üstün tutaraq, mübarizəsindən bəhs edən R.Əhmədov «Mir Cəfər Bağırov: «xalq düşməni», yoxsa xalqın ləyaqətli oğlu» kitabında yazır: «H.Səfərov, R.Bünyadzadə, R.Axundov, Ə.Qarayev, N.Nərimanov və başqaları trotskiçilikdə, millətçilikdə, əks-inqilabi təxribatlarda ittiham olunub həbs edildilər»[61]. Onu da qeyd etmək istərdim ki, vaxtilə bu şəxslər ermənilərlə birləşib Nərimanovun əleyhinə olmuşlar. Bu haqda əvvəlki səhifələrdə danışılmışdır. N.Nərimanovun əlehdarı olan R.Axundov və başqaları Bağırovun da əleyhinə (daxilən) olmuşlar. R.Əhmədov yazır: «R.Axundovun özü 1937-ci ilin dekabrında Bağırovu «millətçi təşkilata rəhbərlik edən şəxs» kimi xarakterizə edir və təsdiq edir ki, «Bağırovun göstərişlərinə əsasən təxribat və ziyankarlıq aktları həyata keçirilir. Bu əksinqilabi fəaliyyət trotskiçilərlə, başqa inqilabi təşkilatlarla və İran millətçi qurumları ilə bir blokda həyata keçirilir»[62]. Demək həbs olunmuşlar özlərinə qarşı olan ittihamları Bağırova qarşı

[60] Məmmədzadə M.B. Azərbaycanda vəziyyət, 1982, s.11
[61] Əhmədov R. Mir Cəfər Bağırov: «Xalq düşməni, yoxsa xalqın ləyaqətli oğlu». Dirçəliş-XXI əsr, 2006, №100-101, s.237
[62] Yenə orada, s.238

çevirməyə cəhd göstərirdilər. Daha sonra müəllif yazır ki, Bağırov qalib gəldi. R.Axundov isə 1938-ci ildə güllələnməyə məruz qaldı.

Bu hadisədən 15 il qabaq N.Nərimanov yazmışdı: «Bir tərəfdən kommunizm bayrağı altında daşnaklar öz işlərini görür, digər tərəfdən keçmiş eserlər tədriclə və inadla Sovet hakimiyyətini içəridən dağıdırlar. Deməli, Nərimanov 1938-ci ildəki hadisələrin 1923-cü ildə qabaqcadan olacağını demişdir.

Nərimanov həkim, yazıçı, filosof, eyni zamanda xalqın azadlığı yolunda öz həyatını mübarizəyə həsr edən görkəmli bir dövlət xadimi idi. Onun mübarizə silahı ideya, söz, fikir idi. Lakin tarix göstərdi ki, mübarizə üçün bunlar kifayət deyildir. Obyektiv şərait tələb edirdi ki, bağırovlar Nərimanovdan sonra qəti hərəkət yolunu tutsunlar. Bütün bu faktlar Azərbaycanda olan qarşıdurmanı, rəhbər vəzifədəki şəxslərin bir-birinə qarşı düşmən münasibətini göstərir. Mən bir qədər haşiyədən çıxaraq M.C.Bağırovun sadə zəhmət adamlarına olan münasibətindən danışmaq istəyirəm. Bu yazdıqlarım olmuş hadisədir. Belə ki, atam rəhmətlik danışırdı ki, atam, qardaşım müharibəyə getmişdilər. Evdə beş bacım və anam qalmışdır. Mən ailəmə kömək məqsədilə Bakıya, neft mədənlərində işləməyə gəldim. Bir gün bacım məktub yazdı ki, qardaş rayondan bizə bir nəfər gəlib dedi ki, bəs, siz 30 kq. yun, ət, yağ və s. verməlisiniz. Biz kasıb adamlar bunu haradan alıb verək. Mən bir şikayət ərizəsi yazaraq, M.S.Bağırovun qəbuluna yollandım. Katibə qadın ərizəni aldı və bildirdi ki, oğul, get evə, bir neçə gündən sonra cavabını alacaqsan. Həqiqətən bir neçə gündən sonra bacım məktub yazaraq göstərirdi ki, rayondan bir maşın gəldi. Bizə bir meşok





un, bir maşın odun, yağ və s. gətirib verdilər və dedilər ki, siz cəbhəçi ailəsisiniz. Buna görə də dövlətə bütün vergiləri verməkdən azadsınız. Qızım, mən Bağırovun bu cür yaxşılığını görmüşəm. O haqqın tərəfdarı idi. 1941-45-ci illərdə rus dilini bilməyən azərbaycanlıları, cəbhədə ruslar güllələyirdilər. Məhz M.C.Bağırov ona görə azərbaycanlılardan ibarət ayrıca 416-cı diviziyanı yaratdı. Oğlunun cəbhədən gələn cənazəsini qaytarıb və deyibdir ki, harada həlak olub, orada dəfn edərsiniz. Onun kimi oğlanlar cəbhədə çox həlak olubdur. Bax, budur Bağırovun vətən, xalq qarşısında xidmətləri. Bağırovun insani keyfiyyətlərini sadalamaqla qurtarmaz. Gəlin, biz nə Bağırovu, nə də Nərimanovu ağına-bozuna baxmadan tənqid atəşinə tutmayaq. Bu gün Nərimanovun xalq qarşısında göstərdiyi xidmətləri qiymətləndirə bilmiriksə, onda düşmənlərin quyusuna su tökmüş olarıq. Öz doğma dilinə, dininə, adət-ənənələrinə sadiq qalan bir insanı qiymətləndirməmək, azı nankorluq olardı.

Nərimanov yaxşı bilirdi ki, doğma dildə mətbuat olmasa tərəqqipərvər ziyalıların xalqla sıx əlaqə yaratmaq və maarifçilik ideyası yaymaq cəhdi səmərə verməz. Buna görə də Nərimanov deyirdi: «Əgər Zaqafqaziyada Azərbaycan dilində qəzet çıxsa, onda cəmiyyət də ana dilində qəzet oxuyaraq, özünün nə etməli olduğunu, nədə geri qaldığını başa düşərdi. Lakin nə qədər ki, belə bir qəzet yoxdur, biz heç nə edə bilmərik. Yaxşı olar ki, savadlı müsəlmanlar qızıl kimi qiymətli vaxtlarını müsəlmanlar üçün anlaşılmaz bir dildə yazılmış faydasız məqalələrə sərf etmək əvəzinə, sadə Azərbaycan dilində bu və ya başqa məsələ barədə

kitabçalar nəşr etməyə başlasınlar, rus dilini öyrənməyin faydasını yazsınlar»[63].

N.Nərimanov qoca Şərqin məşəli idi. O, İran, Türkiyə, Əfqanıstan, Hindistan, Misir və başqa Şərq xalqlarının odlu, alovlu azadlıq carçısı idi. O, Şərqə müraciətlə yazırdı: «Ey Şərq, ey bəşəriyyət əzəli, sənin yolunda yansam, əzablara düşsəm də idealımdan dönən deyiləm. Hamı şahiddir ki, sənin yolunda «ömrümü sərf etdim», hərgah can verən bir loğman tapılsaydı, həyatımı sənə verərdim»[64].

Bəli, o, bütün ömrünü Şərq xalqlarının azadlığına həsr etdi. Heç təsadüfi deyildir ki, 1920-ci ildə N.Nərimanovun təşəbbüsü ilə Bakıda Şərq xalqlarının ilk qurultayı çağrıldı. Qurultayda qoca Şərq göz yaşı tökür, öz dərdlərindən, burjua ölkələri kapitalının vurduğu ağır yaralardan danışır, bir-birinin dərdlərindən xəbərdar olur və beləliklə də birləşməkdən, kapitalın əsarət zəncirini parçalamaq vaxtının çatdığından danışırdılar.

N.Nərimanov bütün zəhmətkeşləri millətindən və dini məənsubiyyətindən asılı olmayaraq ümumi düşmənə qarşı mübarizədə birləşməsini istəyirdi.

N.Nərimanov «millət, millət» deyə səsi gəldikcə bağıran, əslində isə öz şəxsi mənafeyini güdənləri tənqid edir, onların həqiqi simasını fanatik dindarlara, yoxsullara açıb göstərirdi. Məsələn, 1906-cı ildə «Həyat»da çap etdirdiyi «Həftə fəryadı» adlı felyatonlarının birində yazırdı ki, millətin dərdi, faciəsi bəzi oxucuları maraqlandırmır. «Bunlar üçün gələcəkdə nə olacaq? Millət və ya vətən tərəqqi edəcəkdir», ya yox?

[63] «Kaspi» qəzeti. 1896, s.25
[64] «Kommunist» qəzeti, 27 may 1920, №21





Bu təsəvvürdə olanlar üçün birdir, təfavüt yoxdur»[65]. M.Ə.Rəsulzadə Nərimanovla əlaqədar yazırdı: «İslamda ağılın mühüm bir mövqeyi vardır. Fəqət bu günki dini tələqqiyatımızda isə məttəssüf o mövqe bir çox alçaqlanmış, köçülmüş, dairəsi məhdud olmuşdur. Doğru, bizdəkilər Roma papaları qədər təhəkkümə çıxmamışlarsa da, hər halda məaşa aid olan hər bir məsələni şərə tətbiq etmək istəməkdən də geri qalmamışdır. İslamiyyatın indiki halı islah olunmaq üçün bir «Lüterə» ehtiyac varmıdır? Buna Bahadır müsbət bir cavab veriyor. Nəriman bəyin qəhrəmanınca – demək ki, Nəriman bəyin də fikrincə islam aləmi indi öz Lüterini gözləməkdədir və bu Lüter gəlməyincə də müsəlmanlar tədənnində qalacaqlar».[66]

Rəsulzadə N.Nərimanovun da bu fikirdə olmasını müsbət qiymətləndirirdi.

[65] N.Nərimanov. Əsərləri. B., Azərnəşr, 1956, s.259
[66] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cilddə, B., Şirvanşərş, 2004, s.290-291

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.N.Nərimanov. Məqalələr və nitqlər. II cildlik, cild 1, B., Azərnəşr, 1971, 265 s.
2.N.Nərimanov. Əsərləri, B., Azərnəşr, 1956
3.T.Əhmədov. N.Nərimanov. B., İşıq, 1977
4.Teymuroğlu Ə. N.Nərimanov və türk xalqları. B., Nurlan, 2006, 159 s.
5.Əhmədov T. Böyük ictimai xadim və yazıçı. B., Nurlan. 2001, 203 s.
6.Həsənov H. N.Nərimanov milli təmayüllü kommunist. B., Pedaqoqika, 2004, 80 s.
7.F.Əhmədova. N.Nərimanov ideal və gerçəklik. B., 1999
8.Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördük-lərim. B., Azərnəşr, 1989, 373 s.
9.Qurbanov Ş. Nəriman Nərimanov ömrünün son illəri. B., Azərnəşr, 2003, 375 s.
10.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B., Elm, 1990, 113 s.
11.Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. B., Gənclik, 1990, 112 s.
12.N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). B., Azərnəşr, 1992, 77 s.
13.B.Qəhrəmanov. Doktor Nərimanov. B., 1990
14.Quliyev V. N.Nərimanov: 20-ci illərdən baxış, «Xalq» qəzeti, 1996, 4 dekabr
15.Quliyev D.R. Əyintilərə qarşı mübarizədə Kommunist. 1990, 10 mart
16.Quliyev D.R. Kommunist, 1990, 18 fevral





17.Əfəndiyev A.İ. Təfəkkürün fəlsəfəsi. B., Azərnəşr, 1997
18.Əfəndiyev S.M. Seçilmiş əsərlər. B., Nurlan, 1990
19.İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-30). B., Pedaqogika, 1996
20.İsmayılov E., Həsənov C., Qafarov Q. Azərbaycan tarixi, B., 1994
21.İstila qurbanları. B., 1993
22.Y.V.Çəmənzəminlinin xarici siyasəti. B., 1993
23.Köçərli F. Tarixi saxtalaşdıranlar əleyhinə. B., 1972
24.Köçərli F. N.Nərimanov yeni təfəkkür işığında AEA-nın xəbərləri. 1991, №1
25.Məməmdzadə B. Milli Azərbaycan hərəkatı. B., 1922
26.Məmmədov M. N.Nərimanov və ana dili. Elm, B., 1971
27.Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. B., 1990
28.Nəsibzadə N. Azadlıq, 1991, 14 mart
29.M.S.Ordubadi. Nərimançılıq Azərbaycan, 1990, 13 avqust
30.Rəsulzadə M.Bolşeviklərin Şərq siyasəti. Gənclik, 1991, №7
31.Səttarov. Nərimanov və din. B., 1995
32.Hacıyeva A. N.Nərimanovun din haqqında fəlsəfi düşüncələri. B., Azərbaycan Ensiklopediyası, 1998
33.Hacıyeva A. N.Nərimanovun nəzəri-fəlsəfi irsində dinə münasibət. B., ADU, 1993
34.Qocatürk İ.Atatürk, B., Elm, 1991, 212
35.Həsənov S. Azərbaycanın beynəlxalq münasibətlər sistemi (1918-1920). B., 1993
36.Nərimanov N. Lenin və Şərq. B., azərnəşr, 1970
37.Nərimanov N. Həmlə arvat. B., 1924
38.Siyasi partiyalar və ictimai hərəkatlar mərkəzi dövlət arxivi, f.609, i.154, 150,151, 152, 153,158, 159, 160.

39.Ordubadi M.S. Nərimançılıq. «Azərbaycan», 27 aprel 1990
40.Nərimanov N. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. B., Nurlan, 2002
41.Xəndan S. Nəriman Nərimanovun ədəbi fəaliyyəti. «Azərbaycan», 1956, №5
42.Həsənov N. Nəriman Nərimanovun tarixi missiyası. B., Pedaqogika, 2005
43.Qurbanov Ş. Atatürk və Nərimanov. B., Milli Məclisin nəşriyyatı, 2003
44.Qurbanov Ş. O zəmanəsinin övladı idi. Kommunist, 6 iyul, 1991
45.Mir Cəlal. N.Nərimanovun yaradıcılığı haqqında. «İnqilab və mədəniyyət», 1935, №3
46.Mir Cəlal. N.Nərimanov (bioqrafik məlumat). Kommunist, 11 aprel 1956
47.Görkəmli humanist və beynəlmiləlçi Azərbaycan Kommunisti, 1990, №4
48.Kərimli S. N.Nərimanov və XX əsrin əvvəllərində Azərbaycan mədəni həyatı. Zəka, 1997, №3-4
49.Hüseynov C. Görkəmli dövlət xadimi N.Nərimanov. «Respublika», 2004, 14 aprel
50.Hüseynov K. N.Nərimanovun xatirə muzeyində. «Respublika», 2003, 28 yanvar
51.Adıgözəl H. Hüseyn Adıgözəl Nərimanovu Türkiyəyə tanıtmaq istəyir. «Respublika», 2004, 1 dekabr
52.Əsədov B. Nəriman Nərimanov Lenini erməni məsələsindən xəbərdar etmişdir. Azərbaycan, 2005, 6 mart
53.Şükürov A. N.Nərimanovun xatirəsinə. «Elm», 2005, 31 mart
54.Tağıyev Ə. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı, 2000, 194 s.





## MÜNDƏRİCAT

**Elmi redaktordan**..........3

**GİRİŞ**..........5

**I FƏSİL. N.NƏRİMANOV VƏ MİLLƏT**..........7

§1. Bir çox millətlərdən təşkil olunan dövlətdə milli məsələnin həlli..........7

§2. Milli məsələnin həlli. Azərbaycanda milli məsələ və yerli idarəetmə orqanları..........20

**II FƏSİL: XALQ ÜÇÜN YANAN ÜRƏK**..........33

§1. Azərbaycandakı erməni qüvvələrinin siyasəti..........33

§2. Nərimanov və dil..........49

**NƏTİCƏ**..........71
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**..........76

Çapa verilmişdir: **03.08.2015**
Şərti çap vərəqi: **5**
Formatı: **60x84 16/1**
Tiraj: **200**

---

*Kitab “**AFPoliqraAF**” mətbəəsində çap edilmişdir*